“Yapı Kredi Bank Azərbaycan” QSC

31 dekabr 2019-cu il tarixinə

Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı

Mündəricat

Müstəqil Auditorun Hesabatı

Maliyyə hesabatları

Maliyyə vəziyyəti haqqında hesabat 1
Mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat 2
Kapitalda dəyişikliklər haqqında hesabat 3
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat 4

Maliyyə hesabatları üzrə qeydlər

1 Giriş 5
2 Bankın əməliyyat mühiti 5
3 Əsas uçot siyasəti 6
4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr 15
5 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi 17
6 Yeni uçot qaydaları 19
7 Pul vəsaitləri və onların ekvivalentləri 20
8 Kredit təşkilatlarından alınacaq vəsaitlər 21
9 Müştərilərə verilmiş kreditlər 23
10 ARMB-nin notları və digər istiqrazlar 38
11 Əmlak və avadanlıqlar 39
12 Qeyri-maddi aktivlər 40
13 İstifadə hüquqlu aktivlər və icarə öhdəlikləri 41
14 Mənfəət vergisi 41
15 Sair aktivlər və öhdəliklər 43
16 Kredit təşkilatlarına ödəniləcək vəsaitlər 44
17 Müştərilərə ödəniləcək vəsaitlər 44
18 Nizamnamə kapitalı 45
19 Təəhhüdlər və şərti öhdəliklər 45
20 Xalis haqq və komissiya gəlirləri 46
21 İşçi heyəti üzrə xərclər 47
22 Ümumi və inzibati xərclər 47
23 Risklərin idarə olunması 47
24 Maliyyə alətlərinin ədalətli dəyəri 57
25 Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması 59
26 Kapitalın adekvatlığı 60

Müstəqil Auditorun Hesabatı

"Yapı Kredi Bank Azərbaycan" QSC-nin Səhmdarlarına və İdarə Heyətinə:

Rəy

Bizim fikrimizcə, hazırkı maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından "Yapı Kredi Bank Azərbaycan" QSC-nin ("Bank") 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq düzgün əks etdirir.

Auditin predmeti

Bankın maliyyə hesabatları aşağıdakılardan ibarətdir:

- 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyəti haqqında hesabat;
- həmin tarixdə başa çatan il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat;
- həmin tarixdə başa çatan il üzrə kapitalda dəyişikliklər haqqında hesabat;
- həmin tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabat; və
- əsas uçot siyasəti və digər izahedici məlumatlar da daxil olmaqla, maliyyə hesabatları üzrə qeydlər.

Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyət rəyimizin *"Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti"* bölməsində əks etdirilir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Müstəqillik

Biz Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq Bankdan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk. Biz Etika Məcəlləsinə uyğun olaraq, etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik.

Maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Bankı ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Bankın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fəaliyyətin fasiləsizliyinə dair məlumatların açıqlanmasına və fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslər Bankın maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz bütövlükdə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kifayət qədər əminlik əldə etmək və rəyimizin daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək səviyyəsidir, lakin Beynəlxalq Audit Standartlarına uyğun olaraq auditin aparılması zamanı mövcud olan bütün əhəmiyyətli təhriflərin həmişə aşkar olunacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu olaraq istifadəçilərin maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmək ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartlarına uyğun aparılan auditin bir hissəsi olaraq, biz audit zamanı peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması riskini müəyyən edir və qiymətləndirir, həmin risklərə qarşı audit prosedurlarını hazırlayır və həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən daha yüksəkdir, çünki fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, yanlış təqdimat və ya daxili nəzarət sistemində sui-istifadə halları daxil ola bilər.
- Bankın daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarını işləyib hazırlamaq üçün daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Rəhbərlik tərəfindən istifadə edilən uçot siyasətlərinin uyğunluğunu, habelə uçot təxminləri və müvafiq açıqlamaların münasibliyini qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Bankın fasiləsiz fəaliyyət göstərmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və şəraitlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəldikdə, auditor rəyimizdə maliyyə hesabatlarındakı müvafiq məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması yetərli olmadıqda, rəyimizdə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və şəraitlər Bankın fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında düzgün təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar barədə məlumat veririk.

PricewaterhouseCoopers Audit Azerbaijan LLC

31 yanvar 2020-ci il

Bakı, Azərbaycan Respublikası

	Qeyd	31 dekabr 2019	31 dekabr 2018
AKTİVLƏR			
Pul vəsaitləri və onların ekvivalentləri	7	202,396	163,432
Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılmış notlar və digər təşkilatların istiqrazları	10	36,536	45,226
Kredit təşkilatlarından alınacaq vəsaitlər	8	20,986	62,030
Müştərilərə verilmiş kreditlər	9	160,678	144,831
Əmlak və avadanlıqlar	11	3,874	4,573
Qeyri-maddi aktivlər	12	7,890	7,940
İstifadə hüquqlu aktivlər	13	5,751	-
Sair aktivlər	15	8,936	7,793
CƏMİ AKTİVLƏR		**447,047**	**435,825**
ÖHDƏLİKLƏR			
Kredit təşkilatlarına ödəniləcək vəsaitlər	16	10,051	7,270
Müştərilərə ödəniləcək vəsaitlər	17	330,609	335,050
Cari mənfəət vergisi öhdəliyi		-	113
Təxirə salınmış mənfəət vergisi öhdəliyi	14	2,116	2,145
Sair öhdəliklər	15	12,922	6,093
CƏMİ ÖHDƏLİKLƏR		**355,698**	**350,671**
KAPİTAL			
Nizamnamə kapitalı	18	55,381	55,381
Bölüşdürülməmiş mənfəət		35,968	29,773
CƏMİ KAPİTAL		**91,349**	**85,154**
CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL		**447,047**	**435,825**

31 yanvar 2020-ci il tarixində Bankın İdarə Heyəti adından təsdiqlənmiş və imzalanmışdır:

Cenk Yüksel
İdarə Heyətinin Sədri / Baş Direktor

Mətanət Qasımova
Baş Mühasib

Ramin Səftərov
Maliyyə Hesabatları Departamentinin Müdiri

	Qeyd	2019	2018
Faiz gəlirləri			
Müştərilərə verilmiş kreditlər		19,776	25,689
Kredit təşkilatlarından alınacaq məbləğlər		3,979	5,245
İnvestisiya qiymətli kağızları		2,633	3,775
Faiz xərcləri			
Müştərilərə ödəniləcək vəsaitlər		(2,887)	(4,767)
İcarə öhdəliyi üzrə ödəniləcək vəsaitlər		(360)	-
Kredit təşkilatlarına ödəniləcək vəsaitlər		(169)	(126)
Xalis faiz gəlirləri		**22,972**	**29,816**
Kredit zərərləri üzrə ehtiyat		(637)	(7,738)
Kredit zərərləri üzrə ehtiyatın yaradılmasından sonra xalis faiz gəlirləri		**22,335**	**22,078**
Xalis haqq və komissiya gəlirləri	20	4,957	5,241
Xarici valyuta ilə əməliyyatlar üzrə zərər çıxılmaqla gəlir		3,645	4,984
Xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə xalis zərər		(14)	(62)
Sair gəlirlər		48	52
Qeyri-faiz gəliri		**8,636**	**10,215**
İşçil heyəti üzrə xərclər	21	(9,919)	(9,787)
Ümumi və inzibati xərclər	22	(7,336)	(10,317)
Köhnəlmə və amortizasiya xərcləri	11,12	(3,820)	(4,068)
İstifadə hüquqlu aktivlər üzrə amortizasiya xərci	13	(2,328)	-
Sair dəyərsizləşmə və ehtiyatlar		37	(46)
Qeyri-faiz xərcləri		**(23,366)**	**(24,218)**
Vergidən əvvəlki mənfəət		**7,605**	**8,075**
Mənfəət vergisi xərci	14	(1,410)	(2,121)
İL ÜZRƏ MƏNFƏƏT		**6,195**	**5,954**
İl üzrə sair məcmu gəlir		**6,195**	**5,954**
İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR		**6,195**	**5,954**

5-60-cı səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.

"Yapı Kredi Bank Azərbaycan" QSC
Kapitalda dəyişikliklər haqqında hesabat
(min Azərbaycan manatı ilə)

	Nizamnamə kapitalı	Bölüşdürülməmiş mənfəət	Cəmi
1 yanvar 2018-ci il tarixinə qalıq	**55,381**	**23,819**	**79,200**
İl üzrə mənfəət	-	5,954	5,954
İl üzrə cəmi məcmu gəlir	-	5,954	5,954
31 dekabr 2018-ci il tarixinə qalıq	**55,381**	**29,773**	**85,154**
İl üzrə mənfəət	-	6,195	6,195
İl üzrə cəmi məcmu gəlir	-	6,195	6,195
31 dekabr 2019-cu il tarixinə qalıq	**55,381**	**35,968**	**91,349**

5-60-cı səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.

Min Azərbaycan manatı ilə	Qeyd	2019	2018
Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
Alınmış faizlər		29,547	27,887
Ödənilmiş faizlər		(3,716)	(5,822)
Alınmış haqq və komissiyalar		10,585	10,931
Ödənilmiş haqq və komissiyalar		(5,572)	(5,653)
Xarici valyuta ilə əməliyyatlar üzrə zərər çıxılmaqla reallaşdırılmış gəlir		3,645	4,984
Alınmış sair gəlirlər		48	52
İşçilər üzrə ödənilmiş xərclər		(9,340)	(10,339)
Ödənilmiş sair əməliyyat xərcləri		(7,558)	(10,296)
Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti		**17,639**	**11,744**
Əməliyyat aktivlərində xalis (artım)/azalma:			
Kredit təşkilatlarından alınacaq məbləğlər		40,001	(58,318)
Müştərilərə verilmiş kreditlər		(17,357)	(30,840)
Sair aktivlər		(1,019)	200
Əməliyyat öhdəliklərində xalis artım/(azalma):			
Kredit təşkilatlarına ödəniləcək vəsaitlər		2,781	2,953
Müştərilərə ödəniləcək vəsaitlər		(4,141)	(7,158)
Sair öhdəliklər		393	644
Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri		**38,297**	**(80,775)**
Ödənilmiş mənfəət vergisi		(2,012)	(3,916)
Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri		**36,285**	**(84,691)**
İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
İstiqrazların (alınması)/satılması		7,460	(10,210)
Əmlak və avadanlıqların alınması	11	(1,036)	(1,066)
Qeyri-maddi aktivlərin alınması	12	(2,205)	(2,366)
İnvestisiya fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri		**4,219**	**(13,642)**
Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
İcarə öhdəliklərinin əsas hissəsinin ödənilməsi		(2,320)	-
Maliyyələşdirmə fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri		**(2,320)**	**-**
Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri		(14)	(62)
Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma)/artım		**38,170**	**(98,395)**
İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri		**197,918**	**296,313**
İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri	7, 10	**236,088**	**197,918**

Bankın uçot siyasətinə uyğun olaraq pul vəsaitləri və onların ekvivalentləri 33,692 AZN (2018: 34,486 AZN) məbləğində Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılmış notlardan ibarətdir.

1 Giriş

Hazırkı maliyyə hesabatları 31 dekabr 2019-cu il tarixində başa çatan il üçün Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq "Yapı Kredi Bank" QSC ("Bank") üçün hazırlanmışdır.

Yapi Kredi Bank Azərbaycan ("Yapı Kredi Bank") Azərbaycan Respublikasında təsis olunub və bu ölkədə fəaliyyət göstərir. Yapi Kredi Bank Azərbaycan məhdud məsuliyyətli qapalı səhmdar cəmiyyətdir və Azərbaycanın normativ-hüquqi aktlarına uyğun olaraq qurulmuşdur.

Əsas fəaliyyət. Yapı Kredi Bankın əsas fəaliyyəti Azərbaycan Respublikasında kommersiya və pərakəndə bank əməliyyatlarının həyata keçirilməsidir. Yapı Kredi Bank Azərbaycan Respublikası Mərkəzi Bankının ("ARMB") 11 yanvar 2000-ci ildə verdiyi 243 qeydiyyat nömrəli tam bank lisenziyası əsasında fəaliyyət göstərir. Yapı Kredi Bank Azərbaycan Respublikasının 29 dekabr 2006-cı il tarixli "Əmanətlərin sığortalanması haqqında" Qanununda nəzərdə tutulan əmanətlərin sığortalanması üzrə dövlət proqramında iştirak edir. Əmanətlərin Sığortalanması Fondu fiziki şəxslərin AZN üçün illik kredit faizi 10%-i, xarici valyutalar üçün isə 2.5%-i keçməyən əmanətlərinin tam qaytarılmasına zəmanət verir.

Bankın hüquqi və faktiki ünvanı. Bankın hüquqi və faktiki ünvanı aşağıdakı kimidir: Azərbaycan Respublikası, Bakı, AZ1078, Cəlil Məmmədquluzadə küçəsi, 73G.

Bankın Azərbaycan Respublikasında 8 filialı (2018: 7 filial) və 1 müştəri xidmətləri şöbəsi (2018: 1 müştəri xidmətləri şöbəsi) fəaliyyət göstərir. 31 dekabr 2019-cu il tarixinə Bankın 245 nəfər işçisi vardır (2018: 257 nəfər).

31 dekabr 2019 və 2018-ci il tarixinə Bankın səhmdar strukturunda səhmdarların payları aşağıdakı kimi olmuşdur:

Səhmdarlar	**%**
Yapı ve Kredi Bankası A.Ş.	99.8
YK Yatırım Menkul Degerler A.Ş.	0.1
YK Lease A.Ş.	0.1
Cəmi	100.0

Türkiyədə təsis edilmiş "Yapı ve Kredi Bankası A.Ş." ("YKB") Bankın əsas baş müəssisəsidir. YKB-nin səhmləri 1987-ci ildən etibarən İstanbul Fond Birjasında ("İFB") ticarət edilir. 31 dekabr 2019-cu il tarixinə YKB-nin səhmlərinin 18.20%-i birjalarda açıq şəkildə ticarət edilmişdir (31 dekabr 2018: 18.20%). Qalan 81.80% Koç Finansal Hizmetler A.Ş. ("KFS") şirkətinin mülkiyyətindədir. KFS şirkətinin əsas səhmdarları "UniCredito Italiano SPA" və "Koç Holding" şirkətləridir və hər birinin mülkiyyət payı 50% təşkil edir.

2 Bankın əməliyyat mühiti

Azərbaycan iqtisadiyyatında inkişaf etməkdə olan bazarlara xas müəyyən xüsusiyyətlər müşahidə edilir. Azərbaycan iqtisadiyyatının mövcud və gələcək inkişafı və sabitliyi hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və monetar tədbirlərin effektivliyindən, eləcə də xam neftin qiymətlərindən və Azərbaycan manatının sabitliyindən əhəmiyyətli dərəcədə asılıdır.

Neft qiymətlərindəki azalma və milli valyutanın əsas xarici valyutalara qarşı devalvasiyasının nəticəsi olaraq 2016-cı ildə kəskin iqtisadi böhrandan sonra hökumət uzunmüddətli iqtisadi sabitliyi və dayanıqlığı təmin etmək üçün islahatları sürətləndirmişdir. İnstitusional dəyişiklikləri əhatə edən iqtisadi islahatlara əsasən inflyasiya aşağı birrəqəmli səviyyədə sabitləşmiş, iqtisadi artım pozitiv zonada qalmaqda davam etmiş, milli valyutanın məzənnəsi dayanıqlı olmuş və xarici sektorda müsbət tendensiyalar yaranmışdır.

Bir sıra qeyri-sabit sistem risklərinə baxmayaraq, borcların ödənilməsi ilə yanaşı bank sektorunun sabitliyi də təmin edilmişdir. "Fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrası fiziki şəxslərin borclarının ödənilməsi və vaxtı keçmiş kredit borclarının restrukturizasiyasına gətirib çıxarmış, eləcə də bank sektorunda problemli kreditlər məsələsinin həllini təmin etmişdir.

2019-cu il ərzində beynəlxalq reytinq agentlikləri Azərbaycanın kredit reytinqini sabit saxlayıb. İyul ayında Moody's agentliyi Azərbaycanın bank sistemi üzrə proqnozunu "sabit"-dən "müsbət" səviyyəyə yüksəldib. Agentlik Azərbaycanın iqtisadi artımının və əvəzsiz dövlət dəstəyinin bank sektoruna müsbət proqnoz verilməsinə təsir edən əsas amillər hesab edir. Dünya Bankının "Doing Business 2020" hesabatına əsasən "Biznes qurmağın asanlığı" indeksi üzrə Azərbaycanın mövqeyi 34-ə yüksəlib.

2 Bankın əməliyyat mühiti (davamı)

Bankın rəhbərliyi mövcud iqtisadi mühitdə baş verən prosesləri müşahidə edir və Bankın yaxın gələcəkdə fəaliyyətinin dayanıqlığını və inkişafını təmin etmək üçün qabaqlayıcı tədbirlər görür. Buna baxmayaraq, mövcud iqtisadi vəziyyətin gələcək təsirini qabaqcadan proqnozlaşdırmaq nisbətən mürəkkəb olduğuna görə rəhbərliyin iqtisadi mühitlə bağlı cari proqnozları və təxminləri faktiki nəticələrdən fərqli ola bilər.

3 Əsas uçot siyasəti

Maliyyə hesabatlarının tərtibatının əsasları. Hazırkı maliyyə hesabatları maliyyə alətlərini ilkin olaraq ədalətli dəyərlə tanımaqla, əmlak və avadanlıqları yenidən qiymətləndirməklə, eləcə də maliyyə alətlərini ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərə aid olunan ("FVTPL") və ədalətli dəyərinin dəyişməsi sair məcmu gəlirə aid olunan kateqoriyalara təsnifləşdirməklə, ilkin dəyər metoduna əsasən hazırlanmışdır. Hazırkı maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən əsas uçot siyasətləri aşağıda göstərilir. 1 yanvar 2019-cu il tarixindən BMHS 16-ya keçidlə əlaqədar uçot siyasətində baş verən dəyişikliklərdən başqa, həmin uçot siyasəti başqa cür göstərilmədiyi hallarda, təqdim edilən bütün dövrlərə müvafiq şəkildə tətbiq edilmişdir (Qeyd 5).

Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları. *Ədalətli dəyər* qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər ən yaxşı olaraq fəal bazarda alınıb satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir.

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqədidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

Amortizasiya olunmuş dəyər (AC) əsas məbləğ üzrə ödənişlərin çıxılmasından və hesablanmış faizlərin əlavə edilməsindən, maliyyə aktivləri üçün isə gözlənilən kredit zərərləri üzrə ehtiyatın çıxılmasından sonra maliyyə alətinin ilkin tanınma zamanı qeydə alınan dəyəridir. Hesablanmış faizlərə ilkin tanınma zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz dərəcəsi metodundan istifadə etməklə ödənilməli məbləğ üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (o cümlədən təqdim olunma zamanı təxirə salınmış komissiyalar, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərində əks olunur.

3 Əsas uçot siyasəti (davamı)

Effektiv faiz metodu maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi gələcək pul ödənişləri və ya daxilolmalarını (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin fəaliyyət müddəti və ya daha qısa müddət ərzində maliyyə alətinin ümumi balans dəyərinə diskontlaşdıran dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Belə mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

Maliyyə alətlərinin ilkin tanınması. FVTPL kateqoriyasında ölçülən maliyyə alətləri ilkin olaraq ədalətli dəyərlə tanınır. Bütün digər maliyyə alətləri əməliyyat xərcləri də daxil olmaqla, ilkin olaraq ədalətli dəyərlə tanınır. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə təsdiqlənir. İlkin tanınma zamanı gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Əməliyyat qiyməti eyni maliyyə aləti ilə aparılan digər müşahidə oluna bilən cari bazar əməliyyatları və ya əsas məlumat kimi yalnız müşahidə edilə bilən bazarların məlumatlarını istifadə edən qiymətləndirmə modeli ilə təsdiqlənir. İlkin tanınmadan sonra amortizasiya olunmuş dəyərlə qiymətləndirilən maliyyə aktivləri və ədalətli dəyərin dəyişməsi sair məcmu gəlirə aid edilən ("FVOCI") borc alətlərinə investisiyalar üzrə gözlənilən kredit zərərləri üçün ehtiyat tanınır və bu da aktivin ilkin tanınmasından dərhal sonra zərərin tanınması ilə nəticələnir.

Qanunvericilik və ya ümumi qəbul edilmiş bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində təchiz olunması nəzərdə tutulan maliyyə aktivlərinin bütün digər alış və satışları ("standart şərtlər" əsasında alış və satışlar), Bankın maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar Bankın həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduğu halda tanınır.

Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: qiymətləndirmə kateqoriyaları. Bank maliyyə aktivlərini aşağıdakı kateqoriyalarda təsnifləşdirir: FVTPL, FVOCI və AC. Borc maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə ölçülməsi: (i) müvafiq aktivlər portfelinin idarə olunması üçün Bankın biznes modelindən və (ii) aktiv üzrə pul axınlarının xüsusiyyətindən asılıdır.

Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: biznes model. Biznes model Bankın pul axınları əldə etməsi məqsədilə portfelin idarə edilməsi üçün istifadə etdiyi metodu əks etdirir və Bankın məqsədinin: (i) aktivlərdən yalnız müqavilə üzrə pul axınlarının əldə edilməsi (""müqavilə üzrə pul axınlarının əldə edilməsi üçün aktivin saxlanılması") və ya (ii) müqavilədə nəzərdə tutulan və aktivlərin satışından yaranan pul axınlarının əldə edilməsi ("müqavilə üzrə pul axınlarının əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılması") olub-olmadığını müəyyən edir. (i) və (ii) bəndlər tətbiq edilmədikdə, maliyyə aktivləri "digər" biznes modellərə aid edilir və FVTPL kateqoriyasında ölçülür.

Biznes model qiymətləndirmə tarixində mövcud olan portfel üzrə müəyyən edilmiş məqsədlərə nail olmaq üçün Bankın həyata keçirməyi planlaşdırdığı fəaliyyətə dair bütün müvafiq sübutlar əsasında aktivlər qrupu (portfel səviyyəsində) üçün müəyyən edilir. Biznes modelin müəyyən edilməsi zamanı Bankın nəzərə aldığı amillərə portfelin məqsədi və tərkibi, müvafiq aktivlər üzrə pul axınlarının əldə edilməsi ilə bağlı keçmiş təcrübə, risklərin qiymətləndirilməsi və idarə edilməsi üzrə yanaşmalar və aktivlər üzrə gəlirliliyin qiymətləndirilməsi üsulları daxildir. Bankın öz maliyyə aktivləri üçün biznes modellərin müəyyən edilməsi zamanı istifadə etdiyi əsas mülahizələr Qeyd 4-də göstərilir.

Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: pul axınlarının xüsusiyyətləri. Biznes model müqavilə üzrə pul axınlarının əldə edilməsi və ya müqavilə üzrə pul axınlarının əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılmasını nəzərdə tutduqda, Bank pul axınlarının yalnız əsas borc və faiz ödənişlərindən ibarət olub-olmadığını qiymətləndirir (SPPI təhlili).

Müqavilə şərtləri əsas kredit sazişinin şərtlərinə uyğun olmayan riskə və ya dəyişkənliyə məruz qalmanı nəzərdə tutduqda, müvafiq maliyyə aktivi FVTPL kateqoriyasında təsnifləşdirilir və qiymətləndirilir. SPPI təhlili aktivin ilkin tanınması zamanı həyata keçirilir və sonradan yenidən qiymətləndirilmir. Bankın öz maliyyə aktivləri üçün SPPI təhlili həyata keçirdiyi zaman istifadə etdiyi əsas mülahizələr Qeyd 4-də göstərilir.

3 Əsas uçot siyasəti (davamı)

Maliyyə aktivlərinin yenidən təsnifləşdirilməsi. Maliyyə aktivlərinin idarə edilməsi üzrə biznes model tam dəyişdirildikdə, bütün maliyyə alətləri yenidən təsnifləşdirilir. Aktivlərin yenidən təsnifləşdirilməsi perspektiv qaydada - biznes modeldəki dəyişiklikdən sonrakı ilk hesabat dövrünün əvvəlindən tətbiq edilir. Bank cari və müqayisəli dövr ərzində öz biznes modelini dəyişdirməmiş və maliyyə aktivlərini yenidən təsnifləşdirməmişdir.

Maliyyə aktivlərinin dəyərsizləşməsi: gözlənilən kredit zərərləri üzrə ehtiyat. Bank amortizasiya olunmuş dəyərlə və FVOCI kateqoriyasında ölçülmüş borc alətləri, eləcə də kredit öhdəlikləri və maliyyə zəmanəti müqavilələrindən yaranan risklər üzrə gözlənilən kredit zərərlərini (ECL) proqnozlar əsasında qiymətləndirir. Bank hər bir hesabat tarixində gözlənilən kredit zərərlərini qiymətləndirir və kredit zərərləri üzrə ehtiyatı tanıyır. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi aşağıdakıları özündə əks etdirir: (i) bir sıra mümkün nəticələrin qiymətləndirilməsi yolu ilə müəyyən edilmiş obyektiv və ehtimal ilə ölçülmüş məbləğ, (ii) pulun zaman dəyəri və (iii) hesabat tarixində keçmiş hadisələr, cari şərtlər və proqnozlaşdırılan gələcək iqtisadi vəziyyət haqqında artıq xərc çəkmədən və ya çalışmadan əldə edilə bilən əsaslandırılmış və təsdiqlənmiş məlumat.

Amortizasiya olunmuş dəyərlə ölçülən borc alətləri gözlənilən kredit zərərləri üzrə ehtiyat çıxılmaqla, maliyyə vəziyyəti haqqında hesabatda göstərilir. Kredit öhdəlikləri və maliyyə zəmanətləri üzrə gözlənilən kredit zərərləri üçün maliyyə vəziyyəti haqqında hesabatda öhdəliyin tərkibində ayrıca ehtiyat tanınır. FVOCI kateqoriyasında qiymətləndirilən borc alətlərinin amortizasiya olunmuş dəyərində dəyişikliklər gözlənilən kredit zərərləri üçün ehtiyat çıxılmaqla mənfəət və ya zərərdə tanınır. Balans dəyərindəki digər dəyişikliklər sair məcmu gəlirlərdə FVOCI kateqoriyasında qiymətləndirilən borc alətləri üzrə "zərər çıxılmaqla gəlir" kimi tanınır.

Bank maliyyə aktivlərinin ilkin tanınmasından etibarən kredit keyfiyyətindəki dəyişikliklərə əsaslanaraq üç mərhələli dəyərsizləşmə modeli tətbiq edir. İlkin tanınma zamanı dəyərsizləşməmiş maliyyə aləti 1-ci Mərhələyə təsnifləşdirilir. 1-ci Mərhələdə maliyyə aktivləri üzrə gözlənilən kredit zərərləri növbəti 12 ay ərzində və ya müqavilədə nəzərdə tutulan ödəniş tarixinə qədər (12 ay bitənə qədər) baş verə bilən defolt hadisələri nəticəsində yaranmış bütöv müddət üçün gözlənilən kredit zərərləri ("12 aylıq gözlənilən kredit zərəri") məbləğində qiymətləndirilir. Bank ilkin tanınma vaxtından etibarən kredit riskində əhəmiyyətli dərəcədə artımın ("SICR") baş verdiyini müəyyən edərsə, aktiv 2-ci Mərhələyə köçürülür və həmin aktiv üzrə gözlənilən kredit zərərləri bütöv müddət üçün gözlənilən kredit zərərləri əsasında, yəni müqavilədə göstərilən ödəmə tarixinə qədər, lakin gözlənilən hər hansı qabaqcadan ödənişləri nəzərə almaqla ("bütöv müddət üçün gözlənilən kredit zərərləri") qiymətləndirilir. Kredit riskində əhəmiyyətli dərəcədə artımın baş verməsinin Bank tərəfindən müəyyən edilməsi qaydası Qeyd 23-də təqdim edilir. Bank maliyyə aktivinin dəyərsizləşməsini müəyyən edərsə aktiv 3-cü Mərhələyə köçürülür və həmin aktiv üzrə gözlənilən kredit zərərləri bütöv müddət üçün gözlənilən kredit zərərləri kimi qiymətləndirilir. Dəyərsizləşmiş aktivlərin və defolt hadisəsinin Bank tərəfindən müəyyən edilməsi qaydası Qeyd 23-də izah edilir.

Kredit və istifadə olunmamış kredit xəttindən ibarət olan kredit kartları kimi müəyyən maliyyə alətləri üzrə istisna olaraq kredit zərərləri Bankın kredit riskinə məruz qaldığı müddət, yəni belə kredit zərərlərinin kredit riskinin idarə edilməsi tədbirləri vasitəsilə azaldılmasına qədər olan dövr ərzində (bu dövr kredit müqaviləsinin maksimum müddətindən artıq olsa belə) qiymətləndirilir. Bu, kreditin ödənilməsinin tələb edilməsi və istifadə olunmamış kredit xəttinin ləğv edilməsinə görə kredit zərərinə məruz qalan məbləğin müqavilədə nəzərdə tutulan bildiriş müddəti ilə məhdudlaşmaması ilə əlaqədardır.

Maliyyə aktivlərinin silinməsi. Maliyyə aktivlərini bərpa etmək üçün Bankın bütün praktiki imkanları tükəndikdə və Bank belə aktivlərin bərpasına dair gözləntilərin əsaslandırılmadığı qənaətinə gəldikdə, maliyyə aktivləri tam və ya qismən silinir. Aktivlərin silinməsi tanınmanın dayandırılmasını əks etdirir. Bank müqaviləyə əsasən ödənilməli məbləğləri bərpa etməyə cəhd etdikdə, lakin həmin məbləğlərin bərpası ilə bağlı əsaslandırılmış gözləntiləri olmadıqda, barəsində hələ də məcburi bərpa tədbirləri görülən maliyyə aktivlərini silə bilər.

Maliyyə aktivlərinin tanınmasının dayandırılması. Bank aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Bank maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin, həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Qarşı tərəf satışa məhdudiyyətlər qoymadan aktivi tam olaraq əlaqəli olmayan üçüncü tərəfə satmaq imkanına malik olmadıqda nəzarəti özündə saxlayır.

3 Əsas uçot siyasəti (davamı)

Maliyyə aktivlərinin modifikasiyası. Bank bəzən maliyyə aktivləri üzrə müqavilə şərtlərinə yenidən baxır və ya onları dəyişdirir. Bu zaman Bank aşağıdakı amilləri nəzərə alaraq, müqavilə üzrə pul axınlarının modifikasiyasının əhəmiyyətli olduğunu qiymətləndirir: aktivin risk profilinə əhəmiyyətli dərəcədə təsir göstərən hər hansı yeni müqavilə şərtləri (məsələn, mənfəətdə pay və ya kapital üzrə gəlirlilik), faiz dərəcəsindəki əhəmiyyətli dəyişikliklər, valyutada dəyişikliklər, aktivlə bağlı kredit riskinə əhəmiyyətli dərəcədə təsir göstərən yeni və ya əlavə kredit təminatının yaranması və ya borcalanın maliyyə çətinliyi olduqda kreditin müddətinin əhəmiyyətli dərəcədə artırılması.

Yeni şərtlər əhəmiyyətli dərəcədə fərqləndikdə əvvəlki aktiv üzrə pul axınlarını əldə etmək hüququ başa çatdığına görə Bank əvvəlki maliyyə aktivinin tanınmasını dayandırır və yeni aktivi ədalətli dəyərlə tanıyır. Müqavilə şərtlərinə yenidən baxılması tarixi növbəti dəyərsizləşmənin hesablanması, o cümlədən kredit riskinin əhəmiyyətli dərəcədə artması faktının müəyyən edilməsi üçün ilkin tanınma tarixi hesab edilir. Bundan əlavə, Bank yeni kreditin və ya borc alətinin SPPI meyarına uyğunluğunu qiymətləndirir. Tanınması dayandırılmış ilkin aktivin balans dəyəri ilə əhəmiyyətli dərəcədə modifikasiya edilmiş yeni aktivin ədalətli dəyəri arasındakı hər hansı fərq (fərqin mahiyyəti səhmdarlarla həyata keçirilən kapital əməliyyatına aid edilmədiyi təqdirdə) mənfəət və ya zərərdə tanınır.

Müqavilə şərtlərinə qarşı tərəfin maliyyə çətinlikləri və əvvəlcədən razılaşdırılmış ödənişləri həyata keçirə bilməməsi səbəbindən yenidən baxılarsa, Bank aktiv üzrə risklərin və faydaların müqavilə şərtlərinin dəyişdirilməsi nəticəsində əhəmiyyətli dərəcədə fərqləndiyini müəyyən etmək üçün aktivlər üzrə ilkin və düzəliş edilmiş gözlənilən pul axınlarını müqayisə edir. Risklər və faydalar dəyişmədikdə, modifikasiya edilmiş aktiv ilkin aktivdən əhəmiyyətli dərəcədə fərqlənmir və bu modifikasiya tanınmanın dayandırılmasına gətirib çıxarmır. Bank modifikasiya edilmiş müqavilə üzrə pul axınlarını ilkin effektiv faiz dərəcəsi ilə diskontlaşdırmaqla, ümumi balans dəyərini yenidən hesablayır və modifikasiya nəticəsində yaranan gəlir və ya zərəri mənfəət və ya zərərdə tanıyır.

Maliyyə öhdəliklərinin qiymətləndirilmə kateqoriyaları. Maliyyə öhdəlikləri aşağıdakılar istisna olmaqla, sonradan amortizasiya olunmuş dəyərlə təsnifləşdirilir: (i) FVTPL kateqoriyasında qiymətləndirilən maliyyə öhdəlikləri: bu təsnifat törəmə maliyyə alətləri, ticarət üçün saxlanılan maliyyə öhdəlikləri (məsələn, qiymətli kağızlar üzrə qısamüddətli mövqelər), bizneslərin birləşməsi zamanı alıcı tərəfindən tanınan şərti ödənişlər və ilkin tanınma zamanı belə öhdəliklər kimi müəyyən edilən digər maliyyə öhdəliklərinə tətbiq edilir və; (ii) maliyyə zəmanəti müqavilələri və kredit öhdəlikləri.

Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması. Maliyyə öhdəliyinin tanınması öhdəlik icra edildiyi halda dayandırılır (yəni, müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə, ləğv edildikdə və ya icra müddəti başa çatdıqda).

Öhdəliklərin icrası ilə nəticələnməyən dəyişikliklər əvəvlki tarixlə məcmu amortizasiyanın hesablanması metodu ilə təxmini göstəricinin dəyişməsi kimi uçota alınır və bu zaman gəlir və ya zərər balans dəyərindəki fərqin iqtisadi mahiyyəti səhmdar ilə kapital əməliyyatlarına aid edilmədiyi təqdirdə, mənfəət və ya zərərdə əks etdirilir.

Pul vəsaitləri və onların ekvivalentləri. Pul vəsaitləri və onların ekvivalentləri pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin cüzi dəyişməsi kimi riskə məruz qalan qısamüddətli qoyuluşlardır. Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul, məcburi ehtiyatlar istisna olmaqla, Azərbaycan Respublikası Mərkəzi Bankından alınacaq vəsaitlər, müxbir hesablar üzrə məhdudiyyət qoyulmamış vəsaitlər, eləcə də overnayt depozitlər və ilkin ödəniş müddəti üç aydan az olan depozitlər daxildir. Verilmə tarixində istifadəsi üç aydan çox müddətə məhdudiyyət qoyulmuş vəsaitlər maliyyə vəziyyəti və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarda pul vəsaitləri və onların ekvivalentlərinə aid edilmir. Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakı səbəblərə görə amortizasiya olunmuş dəyərlə qeydə alınır: (i) müqavilə üzrə pul axınlarını əldə etmək məqsədilə saxlanılır və həmin pul axınları yalnız əsas borc və faiz ödənişlərindən ibarətdir, və (ii) FVTPL kateqoriyasında qiymətləndirilmir. Mərkəzi Bankın notları pul vəsaitləri və onların ekvivalentlərindən ibarətdir.

Mərkəzi Bankdakı məcburi ehtiyatlar. Mərkəzi Bankdakı məcburi ehtiyatlar amortizasiya olunmuş dəyərlə uçota alınır və Bankın gündəlik əməliyyatlarının maliyyələşdirilməsi üçün nəzərdə tutulmayan faizsiz məcburi ehtiyat depozitlərini əks etdirir və bu səbəbdən pul vəsaitlərinin hərəkəti haqqında hesabatın tərtib edilməsi məqsədilə pul vəsaitləri və onların ekvivalentlərinə aid edilmir.

3 Əsas uçot siyasəti (davamı)

Kredit təşkilatlarından alınacaq vəsaitlər. Kredit təşkilatlarından alınacaq vəsaitlər Bank tərəfindən kontragent banklara avans şəklində nağd pul verildiyi zaman uçota alınır. Kredit təşkilatlarından alınacaq vəsaitlər (i) müqavilə üzrə pul axınlarını əldə etmək məqsədilə saxlanıldıqda və həmin pul axınları yalnız əsas borc və faiz ödənişlərini əks etdirdikdə, və (ii) FVTPL kateqoriyasında qiymətləndirilmədikdə amortizasiya olunmuş dəyərlə uçota alınır.

Borc qiymətli kağızlara investisiyalar. Biznes modelə və pul axınlarının xüsusiyyətinə əsasən Bank borc qiymətli kağızları AC, FVOCI və ya FVTPL kateqoriyaları üzrə təsnifləşdirir. Borc qiymətli kağızları müqavilə üzrə pul axınlarını əldə etmək məqsədilə saxlanıldıqda, həmin pul axınları yalnız əsas borc və faiz ödənişlərini əks etdirdikdə və uçot uyğunsuzluğunu əhəmiyyətli dərəcədə azaltmaq üçün FVTPL kateqoriyasında qiymətləndirilmədikdə amortizasiya olunmuş dəyərlə uçota alınır.

Borc qiymətli kağızları müqavilə üzrə pul axınlarını əldə etmək və satmaq üçün saxlanıldıqda, həmin pul axınları yalnız əsas borc və faiz ödənişlərini əks etdirdikdə və FVTPL kateqoriyasında qiymətləndirilmədikdə FVOCI kateqoriyasında uçota alınır. Bu aktivlər üzrə faiz gəlirləri effektiv faiz dərəcəsi metodu ilə hesablanır və mənfəət və ya zərərdə tanınır. Gözlənilən kredit zərərləri modelinə əsasən müəyyən edilmiş dəyərsizləşmə ehtiyatı il üzrə mənfəət və ya zərərdə tanınır. Balans dəyərindəki bütün digər dəyişikliklər sair məcmu gəlirdə qeydə alınır. Borc qiymətli kağızların tanınması dayandırıldıqda əvvəl sair məcmu gəlirdə tanınan məcmu gəlir və ya zərər sair məcmu gəlirdən mənfəət və zərərə yenidən təsnifləşdirilir.

Borc qiymətli kağızlara investisiyalar amortizasiya olunmuş dəyərlə qiymətləndirilən və ya FVOCI kateqoriyasına aid olunan maliyyə aktivləri üzrə tanınma meyarlarına cavab vermədikdə, FVTPL kateqoriyasında uçota alınır. Bank, həmçinin ilkin tanınma zamanı yenidən təsnifləşdirmə hüququ olmadan öz mülahizəsinə əsasən borc qiymətli kağızlara investisiyaları FVTPL kateqoriyasına təsnifləşdirə bilər (əgər bu, fərqli uçot metodları ilə tanınan və ya qiymətləndirilən maliyyə aktivləri və öhdəlikləri arasında uçot uyğunsuzluğunu əhəmiyyətli dərəcədə azaldarsa).

Müştərilərə verilmiş kreditlər. Müştərilərə verilmiş kreditlər müştərinin kreditini almaq və ya müştəriyə kredit vermək məqsədilə Bank tərəfindən müştərilərə avans şəklində nağd pul verildiyi zaman uçota alınır. Biznes model və pul axınlarının xüsusiyyətini nəzərə alaraq, Bank müştərilərə verilmiş kreditləri və avansları aşağıdakı kateqoriyalardan birinə təsnifləşdirir: (i) AC: kreditlər müqavilə üzrə pul axınlarını əldə etmək məqsədilə saxlanıldıqda, həmin pul axınları yalnız əsas borc və faiz ödənişlərini əks etdirdikdə və könüllü olaraq FVTPL kateqoriyasına aid edilmədikdə və (ii) FVTPL: kreditlər SPPI, AC və ya FVOCI kateqoriyasında qiymətləndirmə meyarlarına uyğun olmadıqda FVTPL kateqoriyasında ölçülür.

Dəyərsizləşmə üzrə ehtiyatlar gözlənilən kredit zərərləri üzrə proqnoz modellərə əsasən müəyyən edilir. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsində istifadə edilən ilkin məlumatlar, fərziyyələr və hesablama üsulları haqqında məlumat, eləcə də Bank tərəfindən proqnoz məlumatlarının gözlənilən kredit zərərləri modellərinə daxil edilməsi qaydası Qeyd 23-də göstərilir.

Azərbaycan Respublikası Mərkəzi Bankının (Mərkəzi Bank) notları və digər istiqrazlar. Mərkəzi Bankın notları bir aydan az müddətədək buraxılır və pul vəsaitləri və onların ekvivalentlərindən ibarətdir. Borc qiymətli kağızlara digər investisiyalar amortizasiya olunmuş dəyərdə qiymətləndirilir.

Yenidən mülkiyyətə keçmiş girovlar. Yenidən mülkiyyətə keçmiş girovlar vaxtı keçmiş kreditlərlə bağlı Bank tərəfindən əldə edilmiş maliyyə və qeyri-maliyyə aktivlərindən ibarətdir. Bu aktivlər əldə edildiyi zaman ilkin olaraq ədalətli dəyərdə tanınır və aktivlərin növündən və Bankın həmin aktivləri istifadə etmək niyyətindən asılı olaraq əmlak və avadanlıqlar, digər maliyyə aktivləri, investisiya mülkiyyəti və sair aktivlərin tərkibində mal-material ehtiyatlarına daxil edilir. Yenidən mülkiyyətə keçmiş girovlar balans dəyəri və ya satış xərcləri çıxılmaqla ədalətli dəyərin ən aşağı olanı ilə ölçülür. Aktivin balans dəyərinin dəyərsizləşməsini əks etdirən hər hansı hadisə və ya şəraitdə dəyişiklik baş verərsə, Bank ədalətli dəyərdən satış xərclərini çıxmaqla, ilkin və ya sonrakı silinmə üzrə dəyərsizləşmə zərərini tanıyır.

3 Əsas uçot siyasəti (davamı)

Kreditlərin verilməsi üzrə öhdəliklər. Bank kreditlərin verilməsi üçün öhdəliklər götürür. Belə öhdəliklər geri çağırılmayan öhdəliklər və ya geri çağırılması yalnız əhəmiyyətli dərəcədə mənfi dəyişikliklərə cavab olaraq mümkün olan öhdəliklərdir. Belə öhdəliklər ilkin olaraq adətən alınan ödəniş məbləği ilə təsdiqlənən ədalətli dəyərlə tanınır. Bu məbləğ Bank tərəfindən müəyyən kredit müqaviləsinin bağlanacağı və kreditin verilməsindən sonra qısa müddət ərzində onun istifadəsini planlaşdırmayacağı ehtimal olunan hallar istisna olmaqla, öhdəliyin müddəti ərzində düz xətt metodu ilə amortizasiya edilir; kreditlərin verilməsi üzrə öhdəliklər ilə bağlı belə komissiya gəlirləri gələcək dövrlərin gəlirləri kimi uçota alınır və ilkin tanınma zamanı kreditin balans dəyərinə daxil edilir. Hər bir hesabat dövrünün sonunda öhdəliklər aşağıdakı qaydada qiymətləndirilir: (i) ilkin tanınma zamanı amortizasiya olunmamış qalıq məbləğində və (ii) ECL modeli əsasında müəyyən edilmiş zərər üzrə ehtiyatın məbləğində. Öhdəlik bazar faiz dərəcəsindən aşağı faizlə kreditin verilməsini nəzərdə tutmadıqda, öhdəlik bu iki məbləğdən daha yüksək olanı ilə qiymətləndirilir. Kreditlərin verilməsi ilə bağlı öhdəliklərin balans dəyəri öhdəliklərə aid edilir. Kredit və istifadə edilməmiş kredit öhdəliyindən ibarət olan müqavilələrdə Bank istifadə edilməmiş kredit komponenti və kredit komponenti üzrə ECL-i ayrıca müəyyən edə bilmədikdə, istifadə edilməmiş kredit üzrə ECL kredit zərərləri üzrə ehtiyat ilə birlikdə tanınır. Verilmiş kredit və istifadə edilməmiş krdit öhdəliyi üzrə məcmu ECL kreditin ümumi balansı dəyərindən artıq olduqda, artıq olan hissə öhdəlik kimi tanınır.

Maliyyə zəmanətləri. Maliyyə zəmanətləri müəyyən debitorun borc aləti üzrə ilkin və ya dəyişdirilmiş şərtlərə əsasən ödənişləri vaxtında həyata keçirə bilmədiy halda zəmanət sahibinə dəymiş zərərin əvəzinin ödənilməsini Bankda tələb edir. Maliyyə zəmanətləri ilkin olaraq "sair öhdəliklərdə" adətən alınan komissiya məbləğinə bərabər olan ədalətli dəyərlə tanınır. Bu məbləğ zəmanətin müddəti ərzində düz xətt metodu ilə amortizasiya edilir. Hər bir hesabat dövrünün sonunda zəmanətlər aşağıdakı məbləğlərdən daha yüksək olanı ilə qiymətləndirilir: (i) zəmanət üzrə zərər məbləği üçün gözlənilən zərər modeli ilə müəyyən edilən ehtiyat və (ii) ilkin tanınma zamanı amortizasiya olunmamış məbləğin qalığı. Bundan əlavə, maliyyə vəziyyəti haqqında hesabatda aktiv kimi tanınan alınacaq komissiyalar üçün gözlənilən kredit zərərləri üzrə ehtiyat tanınır.

Vergilər. Cari mənfəət vergisi xərci Azərbaycan Respublikasının qanunları əsasında hesablanır.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri öhdəlik metodundan istifadə etməklə müvəqqəti fərqlər üzrə hesablanır. Təxirə salınmış mənfəət şirkətlərin birləşməsi olmayan əməliyyat zamanı qudvilin və ya aktiv və ya öhdəliyin ilkin tanınmasından irəli gəlməyəndə və əməliyyat zamanı nə uçot mənfəətinə, nə də vergiyə cəlb edilən mənfəətə və ya zərərə təsir göstərmədiyi hallarda, təxirə salınmış mənfəət vergisi aktivlərinin və öhdəliklərinin vergi bazası və onların maliyyə hesabatları məqsədləri üçün balans dəyərləri arasında bütün müvəqqəti fərqlər üzrə müəyyən edilir.

Təxirə salınmış vergi aktivləri yalnız bu dərəcədə müəyyən edilir ki, çıxılan müvəqqəti fərqlərin istifadə edilə bilməsi üçün vergiyə cəlb edilən mənfəətin mövcud olması ehtimalı olsun. Təxirə salınmış mənfəət vergisi aktivləri və öhdəlikləri, hesabat tarixinə qüvvədə olan və ya əsas etibarı ilə qüvvədə olan vergi dərəcələri və vergi qanunları əsasında aktivlərin satıldığı və ya öhdəliklərin yerinə yetirildiyi müddətdə tətbiq edilən vergi dərəcələri ilə ölçülür.

Müvəqqəti fərqin bərpa edilməsi vaxtı nəzarət altında olduğu və müvəqqəti fərqin yaxın gələcəkdə bərpa edilməməsi ehtimal edildiyi hallar istisna olmaqla, təxirə salınmış mənfəət vergisi törəmə müəssisələrə, assosiasiya olunmuş müəssisələrə və birgə müəssisələrə investisiyalardan irəli gələn müvəqqəti fərqlər üzrə əks etdirilir.

Bundan əlavə, Azərbaycanda Bankın fəaliyyəti ilə bağlı ƏDV, əmlak vergisi, ödəmə mənbəyində tutulan vergi və sair müxtəlif əməliyyat vergiləri tətbiq edilir. Bu vergilər ümumi və inzibati xərclərin tərkibinə daxil edilir.

Əmlak və avadanlıqlar. Əmlak və avadanlıqlar gündəlik xidmət xərcləri istisna olmaqla, yığılmış amortizasiyanı və hər hansı tanınmış dəyərsizləşmə zərərini çıxmaqla ilkin dəyəri ilə tanınır. Tanınma meyarına uyğun gələndə, əmlak və avadanlıqların bir hissəsinin əvəz etdirilməsi xərcləri yaranan zaman həmin dəyərə daxil edilir.

Əmlak və avadanlığın balans dəyəri dəyərsizləşmə baxımından balans dəyərinin qaytarılmayacağını göstərən hadisələr baş verəndə və ya şəraitlər dəyişəndə yenidən qiymətləndirilir.

3 Əsas uçot siyasəti (davamı)

Amortizasiya. Aktiv istifadəyə hazır olduğu andan bu aktiv üzrə amortizasiya hesablanmağa başlayır. Amortizasiya aktivlərin balans dəyərlərini aşağıda göstərilən proqnozlaşdırılan istifadə müddətləri üzrə bərabər hissələrə bölməklə hesablanır:

	İllər
İcarəyə götürülmüş aktivlərin əsaslı təmiri	4 - 15
Mebel və digər avadanlıqlar	4 - 5
Kompüter və ofis avadanlığı	4
Nəqliyyat vasitələri	4

Aktivlərin qalıq dəyərləri, istifadə müddətləri və metodlar yenidən baxılaraq, hər maliyyə ilinin sonunda lazım olduqca yeniləşdirilir.

Təmir və rekonstruksiya xərcləri çəkildikcə xərclərə aid edilir və kapitallaşdırılmalı olduğu hallar istisna olmaqla, digər əməliyyat xərclərinə daxil edilir.

Qeyri-maddi aktivlər. Qudvildən başqa qeyri-maddi aktivlər kompüter proqramlarından və lisenziyalardan ibarətdir.

Ayrıca alınmış qeyri-maddi aktivlər ilk olaraq maya dəyəri ilə tanınır. İlkin tanınmadan sonra qeyri-maddi aktivlər yığılmış amortizasiya və yığılmış dəyərsizləşmə zərərlərini çıxmaqla maya dəyəri ilə əks etdirilir. Qeyri-maddi aktivlərin istifadə müddətləri məhdud və ya qeyri-müəyyən müddətlər kimi müəyyən edilmişdir. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlərə 1-10 illik istifadə müddəti üzrə amortizasiya hesablanır və həmin qeyri-maddi aktivlər üzrə mümkün dəyərsizləşmə əlamətləri mövcud olanda dəyərsizləşmə baxımından qiymətləndirmə aparılır. Qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlərlə bağlı amortizasiya müddəti və metodları ən azından hər maliyyə ilinin sonunda yenidən baxılır.

1 yanvar 2019-cu il tarixindən Bankın icarəyə götürən qismində çıxış etdiyi icarə müqavilələrinin uçotu. Bank ofis binaları, mənzillər, avtomobillər və ATM-ləri icarəyə götürür. İcarə müqavilələri Bnakın icarəyə götürülmüş aktivi istifadə etdiyi tarixə müvafiq öhdəliklə birlikdə istifadə hüquqlu aktivlər kimi tanınır. Hər bir icarə ödənişi öhdəlik və maliyyə xərcləri arasında bölüşdürülür. Maliyyə xərcləri hər bir dövr üçün öhdəliyin qalığı üzrə sabit olaraq müntəzəm faiz dərəcəsini təmin etmək üçün icarə müddəti ərzində mənfəət və ya zərərə aid edilir. İlkin dəyərlə tanınan istifadə hüquqlu aktiv onun faydalı istifadə və ya icarə müddəti ərzində (bu müddətlərdən hansı daha tez başa çatarsa) düz xətt metodu ilə amortizasiya edilir.

İcarə müqaviləsi üzrə yaranan öhdəliklər ilkin olaraq cari dəyərlə qiymətləndirilir. İcarə öhdəliklərinə aşağıdakı icarə ödənişlərinin xalis cari dəyəri daxildir:

- icarə üzrə alınacaq həvəsləndirici ödənişlər çıxılmaqla, sabit ödənişlər (mahiyyətcə sabit ödənişlər daxil olmaqla);
- indeks və ya dərəcələrdən asılı olan dəyişən icarə ödənişləri;
- son qalıq dəyəri üzrə ödəniləcək zəmanət məbləğləri;
- icarəyə götürənin əsaslandırılmış şəkildə əmin olduğu halda alış seçiminin icra olunacaq qiyməti;
- icarə müddəti ərzində icarəyə götürən icarəni ləğv etmə seçimini gerçəkləşdirərsə, icarənin ləğv edilməsinə görə cərimə ödənişləri.

İcarə ödənişləri icarə müqaviləsində nəzərdə tutulan faiz dərəcəsi ilə diskontlaşdırılır. Bu faiz dərəcəsinin müəyyən edilməsi mümkün olmadıqda, icarəyə götürənin borc üzrə artan faiz dərəcəsi istifadə olunur. Borc üzrə artan faiz dərəcəsi oxşar iqtisadi mühitdə eyni şərtlərlə aktivi əldə etmək üçün icarəyə götürənin zəruri olan vəsaitlərin cəlb edilməsi zamanı ödəməli olduğu faiz dərəcəsidir.

İstifadə hüquqlu aktivlər aşağıdakılar nəzərə alınmaqla, ilkin dəyərlə qiymətləndirilir:

- icarə öhdəliyinin ilkin qiymətləndirmə məbləği;
- icarə üzrə həvəsləndirici ödənişlər çıxılmaqla, icarə müqaviləsinin başlanma tarixindən əvvəl aparılmış bütün icarə ödənişləri;
- bütün ilkin birbaşa xərclər;
- bərpa xərcləri.

3 Əsas uçot siyasəti (davamı)

İcarə müddətini müəyyənləşdirərkən Bankın rəhbərliyi icarə müddətinin uzadılması və ya icarə müqaviləsinə xitam verilməsi seçiminin istifadə edilməməsi üçün iqtisadi stimul yaradan bütün fakt və halları nəzərə alır. İcarə müddətinin (və ya icarə müqaviləsinə xitam verilməsi seçimlərinin icrası müddətindən sonrakı dövrlərin) uzadılması seçimləri yalnız müqavilənin müddətinin uzadılacağına və ya xitam verilməyəcəyinə əsaslı şəkildə əminlik olduqda, icarə müddətinə daxil edilir.

Qiymətləndirməyə təsir edən mühüm hadisə baş verdikdə və ya şəraitdə əhəmiyyətli dəyişiklik olduqda və belə hallar icarəyə götürənin nəzarəti altında olduqda qiymətləndirmə yenidən nəzərdən keçirilməlidir.

1 yanvar 2019-cu il tarixinə qədər Bankın icarəyə götürən qismində çıxış etdiyi əməliyyat icarəsi müqavilələrinin uçotu. Bank mülkiyyətlə bağlı risk və faydaların əsas etibarilə icarəyə verəndən Banka ötürülməsini nəzərdə tutmayan icarə müqaviləsində icarəyə götürən qismində çıxış etdikdə, ümumi icarə ödənişləri icarə müddəti ərzində düz xətt metoduna əsasən il üzrə mənfəət və ya zərərdə (icarə xərcləri kimi) tanınır.

Digər kredit təşkilatlarına ödəniləcək vəsaitlər. Digər kredit təşkilatlarına ödəniləcək vəsaitlər kontragent banklar tərəfindən Banka nağd pul və ya sair aktivlər şəklində avans verildiyi zaman qeydə alınır. Qeyri-derivativ maliyyə öhdəlikləri amortizasiya edilmiş dəyərlə uçota alınır.

Müştərilərə ödəniləcək vəsaitlər. Müştərilərə ödəniləcək vəsaitlər fiziki şəxslər, dövlət müəssisələri və ya hüquqi şəxslər qarşısındakı qeyri-derivativ maliyyə öhdəliklərini əks etdirir və amortizasiya edilmiş dəyərlə uçota alınır.

Ehtiyatlar. Bank ehtiyatları keçmiş hadisənin nəticəsi olan cari (hüquqi və ya konstruktiv) öhdəliyə sahib olduqda, öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi səmərələri təcəssüm etdirən resursların xaric olmasının tələb olunacağını ehtimal etdikdə və öhdəliyin məbləğini etibarlı qiymətləndirə biləndə tanıyır.

Nizamnamə kapitalı. Adi səhmlər kapital kimi təsnif edilir. Bizneslərin birləşməsi istisna olmaqla, yeni səhmlərin buraxılması ilə birbaşa bağlı olan kənar xərclər kapitalın tərkibində həmin emissiya nəticəsində əldə edilmiş məbləğin azalması kimi əks etdirilir.

Əldə edilmiş vəsaitlərin ədalətli dəyərinin emissiya zamanı səhmlərin nominal dəyərindən artıq məbləği əlavə kapital kimi əks etdirilir.

Maliyyə vəziyyəti haqqında hesabatdakı maddələrin likvidlik ardıcıllığı ilə təqdim edilməsi. Bank üçün dəqiq müəyyən edilə bilən əməliyyat dövrü olmadığına görə o, cari və uzunmüddətli aktiv və öhdəlikləri maliyyə vəziyyəti haqqında hesabatda ayrıca göstərmir. Bunun əvəzində aktiv və öhdəliklər likvidlik ardıcıllığı ilə təqdim olunur. Maliyyə alətlərinin gözlənilən ödəmə müddətləri üzrə təhlili Qeyd 23-də göstərilir.

Şərti öhdəliklər. Şərti öhdəliklər maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmir, lakin onların ödənilməsi üçün ehtiyatların xərclənməsi ehtimalı az olanda, maliyyə hesabatlarında açıqlanır. Şərti aktivlər maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmir, lakin onlarla bağlı iqtisadi faydaların daxil olması ehtimal ediləndə maliyyə hesabatlarında açıqlanır.

Faiz gəlir və xərclərininin uçotu. Bütün borc alətləri üzrə faiz gəlirləri və xərcləri effektiv faiz metoduna əsasən hesablama metodu ilə qeydə alınır. Bu metoda əsasən, faiz gəlirləri və xərclərinə müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün komissiya və haqlar, sövdələşmə xərcləri, eləcə də bütün digər mükafat və ya güzəştlər daxildir.

Faiz gəlirləri dəyərsizləşmiş maliyyə aktivləri (3-cü Mərhələ) istisna olmaqla, maliyyə aktivlərinin ümumi balans dəyərinə effektiv faiz dərəcəsini tətbiq etməklə hesablanır. Belə aktivlər üzrə faiz gəlirini hesablayarkən dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, aktivin amortizasiya olunmuş dəyərinə effektiv faiz dərəcəsi tətbiq edilir.

Haqq və komissiya gəlirləri. Bank haqq və komissiya gəlirlərini müştərilərə göstərdiyi xidmətlərdən əldə edir. Haqlardan əldə edilən gəlir aşağıdakı iki kateqoriyaya bölünə bilər:

- *Müəyyən zaman anında göstərilmiş xidmətlərdən komissiya gəliri*

  Haqq və komissiya gəlirləri müştərinin Bank tərəfindən göstərilən xidmətlərin faydasını eyni anda qəbul və istifadə etdiyi müəyyən dövr ərzində düz xətt metodu ilə tanınır. Müəyyən müddətdə göstərilmiş xidmətlərdən komissiya gəliri həmin müddət ərzində hesablanır. Bu haqlara komissiya gəliri daxildir. Kreditlərin verilməsi öhdəlikləri ilə bağlı haqlar (bu kreditlərin istifadə edilməsi ehtimalı yüksək olanda) və kreditlərlə bağlı digər haqlar (hər hansı əlavə xərclərlə birlikdə) gələcək dövrlərə aid edilir və kredit üzrə faktiki faiz dərəcəsinə düzəliş kimi tanınır.

3 Əsas uçot siyasəti (davamı)

- *Əməliyyat xidmətlərinin göstərilməsindən komissiya gəliri*

  Haqq və komissiya gəlirləri Bank öz icra öhdəliyini yerinə yetirdiyi anda, adətən müvafiq əməliyyatı həyata keçirdikdən sonra tanınır. Alınmış və ya alınacaq haqq və komissiya məbləği fərqli icra öhdəlikləri kimi müəyyən edilmiş xidmətlər üzrə əməliyyat qiymətini əks etdirir. Üçüncü tərəf adından hər hansı əməliyyat və ya danışıqlarda iştirak müvafiq əməliyyat başa çatdıqdan sonra tanınır. Müəyyən gəlirlilik göstəriciləri ilə bağlı olan haqlar və ya haqqın komponentləri müvafiq meyarlar yerinə yetirildikdən sonra tanınır.

Xarici valyutaların alqı-satqısı və konvertasiyası. Bank xarici valyutaların alqı-satqısı və mübadiləsi üzrə əməliyyatları kassa və bank hesabları vasitəsilə həyata keçirir. Əməliyyatlar Bank tərəfindən müəyyən edilən və əməliyyat tarixlərində rəsmi məzənnədən fərqli olan məzənnə ilə aparılır. Rəsmi məzənnə ilə Bankın müəyyən etdiyi məzənnə arasındakı fərqlər müəyyən icra öhdəliyi yerinə yetirildiyi anda xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə zərər çıxılmaqla gəlir kimi tanınır.

Xarici valyutanın çevrilməsi. Hazırkı maliyyə hesabatlarındakı məbləğlər Bankın əməliyyat və təqdimat valyutası olan Azərbaycan manatı ilə ("AZN") təqdim edilir. Xarici valyutada aparılan əməliyyatlar ilk öncə əməliyyat tarixində qüvvədə olan valyuta məzənnəsindən istifadə etməklə funksional valyutada qeydə alınır. Xarici valyuta ilə olan monetar aktivlər və öhdəliklər hesabat tarixinə qüvvədə olan məzənnədən istifadə etməklə funksional valyutaya yenidən çevrilir. Xarici valyutada olan əməliyyatların çevrilməsindən yaranan bütün gəlirlər və zərərlər mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə xalis gəlir (zərər) sətir maddəsi kimi tanınır. Xarici valyuta ilə olan və maya dəyəri ilə qiymətləndirilən qeyri-monetar maddələr ilkin əməliyyatların tarixlərinə mövcud olan məzənnə ilə çevrilir. Xarici valyuta ilə olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr ədalətli dəyərin təyin edildiyi tarixdə mövcud olan məzənnə ilə çevrilir.

Xarici valyuta ilə aparılan əməliyyatın müqavilə üzrə valyuta məzənnəsi ilə Mərkəzi Bankın əməliyyat tarixində qüvvədə olan məzənnəsi arasında fərqlər xarici valyuta ilə dilinq əməliyyatları üzrə gəlir/zərərin tərkibində əks etdirilir.

Bank hazırkı maliyyə hesabatlarının hazırlanmasında 31 dekabr 2019 və 2018-ci il tarixinə mövcud olan aşağıdakı rəsmi məzənnələrdən istifadə etmişdir:

	2019	2018
1 ABŞ dolları	1.7000 AZN	1.7000 AZN
1 Avro	1.9035 AZN	1.9468 AZN

4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

Bank maliyyə hesabatlarında uçota alınan məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə növbəti maliyyə ili ərzində təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik, həmçinin peşəkar ehtimallar və təxminlər irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi müvafiq metodologiya, modellər və ilkin məlumatlardan istifadə etməklə aparılan əhəmiyyətli hesablamadır. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi metodologiyasına dair ətraflı məlumat Qeyd 24-də təqdim edilir. Aşağıdakı komponentlər kredit zərərləri üzrə ehtiyata əhəmiyyətli dərəcədə təsir göstərir: defolt anlayışı, kredit riskinin əhəmiyyətli dərəcədə artması (SICR), defolt ehtimalı (PD), defolta məruz qalan dəyər (EAD), defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ (LGD), eləcə də makroiqtisadi ssenarilər. Bank gözlənilən kredit zərərləri üzrə ehtimallar və faktiki kredit zərərləri arasındakı fərqlərin azaldılması məqsədilə modelləri və modellər üzrə məlumatları müntəzəm olaraq təhlil edir və təsdiqləyir.

31 dekabr 2019-cu il tarixinə defolt ehtimalının hesablanmasında 10%-lik artım və ya azalma gözlənilən kredit zərərləri üzrə cəmi ehtiyatların 109 min AZN çox və ya az olmasına gətirib çıxara bilər. 31 dekabr 2019-cu il tarixinə LGD-nin hesablanmasında 10%-lik artım və ya azalma gözlənilən kredit zərərləri üzrə cəmi ehtiyatların 1,285 min AZN çox və ya az olmasına gətirib çıxara bilər.

Təminatın dəyərinin müəyyən edilməsi. Rəhbərlik təminatın bazar dəyərini müntəzəm olaraq nəzərdən keçirir. Rəhbərlik təminatın ədalətli dəyərini cari vəziyyətə uyğunlaşdırmaq üçün öz mülahizəsindən və ya müstəqil rəydən istifadə edir. Tələb edilən təminat məbləği və ya girov kontragentin kredit riskinin qiymətləndirməsindən asılıdır.

Əlaqəli tərəflərlə əməliyyatların ilkin tanınması. Bank adi fəaliyyəti gedişində əlaqəli tərəflərlə əməliyyatlar aparır. BMHS 9-a uyğun olaraq maliyyə alətləri ilkin olaraq ədalətli dəyərdə tanınmalıdır. Lakin həmin əməliyyatların bazar və ya qeyri-bazar faiz dərəcələrində həyata keçirilməsini müəyyən etmək məqsədilə bu cür əməliyyatlar üçün aktiv bazar mövcud olmadıqda peşəkar mülahizələrdən istifadə etmək lazım gəlir. Mülahizələrin irəli sürülməsinin əsasını əlaqəli olmayan tərəflərlə analoji əməliyyatların qiymətinin müəyyən edilməsi və effektiv faiz dərəcəsinin təhlili təşkil edir. Əlaqəli tərəflərlə əməliyyatların şərtləri haqqında məlumat Qeyd 25-də açıqlanır.

Bərpa olunan kreditlər (məs: kredit kartları, overdraftlar) üzrə riskə məruz qalma. Müəyyən kredit mexanizmləri üzrə Bankın məruz qaldığı kredit riskinin həcmi kredit müqaviləsinin maksimum müddətindən artıq ola bilər. Bu istisna kredit və istifadə olunmamış kredit xəttindən ibarət olan müəyyən bərpa olunan kreditlərə, eləcə də Bankın müqavilə üzrə kreditin ödənilşini tələb etməsi və istifadə olunmamış krediti ləğv etməsi ilə əlaqədar kredit zərərləri üzrə məruz qaldığı riski məhdudlaşdırmadığı hallara tətbiq edilir.

Belə kredit mexanizmləri üçün Bank gözlənilən kredit zərərlərini kredit riskinə məruz qaldığı dövr ərzində qiymətləndirir və ECL-lər kredit riskinin idarə edilməsi tədbirləri hesabına azalmır. Bu istisnanın tətbiq edilməsi mülahizəyə əsaslanır. Rəhbərlik bu istisnanın tətbiq edildiyi fərdi və kommersiya kreditləri kimi kredit mexanizmlərinin müəyyən edilməsi üçün mülahizə irəli sürmüşdür. Bank bu istisnanı aşağıdakı xüsusiyyətlərə malik kredit mexanizmlərinə tətbiq etmişdir: (a) sabit ödəmə müddəti və ya strukturunun olmaması, (b) müqaviləyə müqavilədə nəzərdə tutulan qaydada xitam verilməsi imkanının kredit riskinə məruz qalmanın gündəlik idarə edilməsi məqsədilə istifadə edilməməsi və yalnız ayrıca kredit mexanizmi səviyyəsində kredit riskinin artması Banka məlum olduqda müqaviləyə xitam verilməsi, və (c) risklərin qrup şəklində idarə edilməsi. Bundan əlavə, Bank ECL-in qiymətləndirilməsi dövrünün, o cümlədən risklərə məruz qalmanın başlanma və gözlənilən başa çatma tarixinin müəyyən edilməsi üçün mülahizə irəli sürmüşdür.

4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr (davamı)

Bank əvvəlki dövrlər üzrə məlumat və təcrübə ilə bağlı aşağıdakıları nəzərdən keçirmişdir: (a) Bankın analoji alətlər üzrə kredit riskinə məruz qaldığı dövr, o cümlədən kredit riskindəki əhəmiyyətli dərəcədə artımın qiymətləndirildiyi dövrün başlanğıcını müəyyən edən kredit mexanizmindəki son əhəmiyyətli modifikasiya tarixi (b) kredit riskinin əhəmiyyətli dərəcədə artmasından sonra analoji maliyyə alətləri üzrə defolt hallarının baş verə biləcəyi müddət və (c) kredit riskinin idarə edilməsi tədbirləri (məs: istifadə edilməmiş kredit limitlərinin azaldılması və ya ləğv edilməsi), vaxtından əvvəl ödəniş əmsalı və kreditlərin gözlənilən ödəmə müddətinə təsir göstərən digər amillər. Bu amillərdən istifadə edərkən Bank bərpa edilən kredit mexanizmləri portfellərini alt-qruplara bölür və əvvəlki dövrlərin məlumatları və təcrübəsinə, eləcə də proqnoz məlumatlara əsasən ən uyğun amilləri tətbiq edir.

Kredit riskinin əhəmiyyətli dərəcədə artması. Kredit riskinin əhəmiyyətli dərəcədə artması ilə bağlı qiymətləndirmə aparmaq üçün Bank hesabat və ilkin tanınma tarixlərinə maliyyə aktivi üzrə hesablanmış müvafiq defolt risklərini müqayisə edir. Qiymətləndirmə zamanı hesabat tarixinə kredit riskinin müəyyən səviyyəsi deyil, kredit riskinin nisbətən artması nəzərdən keçirilir. Bank əldə olunması əlavə xərc tələb etməyən dəstəkləyici və əsaslandırılmış məlumatları, o cümlədən müəyyən müştəri portfellərinin davranış aspektləri daxil olmaqla, bir sıra amilləri nəzərə alır. Bank defolt anına qədər kredit riskinin artması ilə bağlı davranış əlamətlərini müəyyən müəyyən edir və müvafiq proqnoz məlumatlarını fərdi maliyyə aləti və ya portfel səviyyəsində kredit riskinin qiymətləndirilməsində istifadə edir. Qeyd 24-ə baxın.

Biznes modelin qiymətləndirilməsi. Maliyyə aktivləri biznes model əsasında təsnifləşdirilir. Biznes modeli qiymətləndirərkən rəhbərlik birləşmə səviyyəsini və maliyyə alətləri üzrə portfelləri müəyyən etmək üçün mülahizələrdən istifadə etmişdir. Satış əməliyyatlarını qiymətləndirərkən Bank onların əvvəlki dövrlərdə baş vermə tezliyini, müddətini və dəyərini, satış səbəblərini və gələcək satışlar ilə bağlı gözləntiləri nəzərə alır. Kredit keyfiyyətinin pisləşməsinə görə potensial zərərlərin azaldılmasına yönəldilmiş satış əməliyyatları "pul axınlarının əldə edilməsi" biznes modelinə uyğun hesab edilir. Kredit riskinin idarə olunması tədbirləri ilə bağlı olmayan ödəmə müddətinə qədər həyata keçirilən digər satışlar da nadir hallarda baş verməsi və dəyərinin ayrılıqda və ya məcmu olaraq əhəmiyyətli olmaması şərtilə, "pul axınlarının əldə edilməsi" biznes modelinə uyğun hesab edilir. Bank satış əməliyyatlarının əhəmiyyətini satışların həcmi ilə portfelin orta müddəti ərzində biznes modeli qiymətləndirilən portfelin dəyərini müqayisə etməklə qiymətləndirir. Bundan əlavə, yalnız "stress" ssenarilərdə və ya Bankın nəzarətində olmayan, təkrar baş verməyən və Bank tərəfindən proqnozlaşdırıla bilməyən ayrıca hadisə ilə bağlı gözlənilən maliyyə aktivlərinin satışı biznes modelin məqsədi ilə əlaqəli olmayan satış əməliyyatı hesab olunur və müvafiq maliyyə aktivlərinin təsnifatına təsir göstərmir.

"Pul axınlarının əldə edilməsi və satılması" biznes modelində aktivlərin pul axınlarının əldə edilməsi üçün saxlanılması nəzərdə tutulsa da, aktivlərin biznes modelin məqsədlərinə (likvidlik ehtiyaclarının idarə olunması, müəyyən faiz gəlirlərinin əldə edilməsi və ya maliyyə aktivlərinin müddətinin həmin aktivlərin maliyyələşdirdiyi öhdəliklərin müddəti ilə uyğunlaşdırılması) nail olmaq üçün satışı onun tərkib hissəsi hesab edilir.

Digər kateqoriyaya əsasən satış vasitəsilə mənfəət əldə etmək üçün nağd pul axınlarının reallaşdırılması məqsədilə idarə olunan maliyyə aktivləri üzrə portfellər daxildir. Bu biznes model adətən müqavilədə nəzərdə tutulan pul axınlarının əldə edilməsi ilə əlaqəlidir.

Pul axınlarının yalnız əsas borc və faiz ödənişləri ("SPPI") meyarına uyğunluğunun qiymətləndirilməsi. Maliyyə aktivi üzrə pul axınlarının yalnız əsas borc və faiz ödənişləri meyarına uyğunluğunu müəyyən etmək üçün mülahizələrin irəli sürülməsi tələb edilir.

Pulun zaman dəyəri elementi aşağıdakı hallarda dəyişdirilə bilər, məsələn, müqavilə üzrə faiz dərəcəsi mütəmadi olaraq dəyişildikdə, lakin bu dəyişikliyin müddəti borc aləti üzrə faiz dərəcəsinin qüvvədə olduğu müddətə uyğun gəlmədikdə (məsələn, kredit üç aylıq banklararası faiz dərəcəsinə əsaslanır, lakin həmin faiz dərəcəsi hər ay dəyişdirilir). Pulun zaman dəyərinin dəyişdirilməsi effekti hər bir dövrdə və məcmu olaraq maliyyə alətinin istifadə müddəti ərzində müvafiq alət üzrə nağd pul axınlarını yalnız əsas borc və faiz ödənişləri meyarına uyğun olan nağd pul axınlarından ibarət baza borc aləti ilə müqayisə etməklə qiymətləndirilmişdir. Qiymətləndirmə maliyyə bazarlarında baş verə bilən əsaslandırılmış mümkün maliyyə stress-ssenariləri daxil olmaqla, bütün əsaslandırılmış mümkün ssenarilər üçün həyata keçirilmişdir. Ssenaridə nəzərdə tutulan nağd pul axınları bazadan əhəmiyyətli dərəcədə fərqləndikdə, qiymətləndirilən alət üzrə nağd pul axınları yalnız əsas borc və faiz ödənişləri meyarına uyğun gəlmir və maliyyə aləti sonradan FVTPL kateqoriyasında qeydə alınır.

4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr (davamı)

Bank müqavilə üzrə nağd pul axınlarının müddətini və ya məbləğini dəyişən müqavilə şərtlərini müəyyən etmiş və nəzərdən keçirmişdir. Nağd pul axınları o halda yalnız əsas borc və faiz ödənişləri meyarına uyğun hesab edilir ki, kreditin şərtlərinə görə onu vaxtından əvvəl ödəmək mümkün olsun, vaxtından əvvəl ödənilən məbləğ əsas borcu və hesablanmış faizləri, eləcə də müqaviləyə vaxtından əvvəl xitam verilməsinə görə əsaslandırılmış əlavə kompensasiyanı özündə əks etdirsin. Aktiv üzrə əsas məbləğ əsas borc üzrə sonrakı ödənişlər (yəni, effektiv faiz metodundan istifadə etməklə müəyyən edilmiş faizsiz ödənişləri) çıxılmaqla, ilkin tanınma zamanı ədalətli dəyərə bərabərdir. Bu qaydada istisna hal olaraq standart, həmçinin qabaqcadan ödəniş elementlərinə malik olan alətlərə yalnız əsas borc və faiz ödənişləri meyarına uyğun olmaq üçün aşağıdakı şərtlərə cavab verməyə imkan yaradır: (i) aktiv mükafat və ya güzəştlə verildikdə (ii) qabaqcadan ödəniş məbləği müqavilə üzrə nominal dəyərdən və hesablanmış faizlərdən, eləcə də müqaviləyə vaxtından əvvəl xitam verilməsinə görə əsaslandırılmış əlavə kompensasiyadan ibarət olduqda və (ii) ilkin tanınma zamanı vaxtından əvvəl ödəniş elementinin ədalətli dəyəri əhəmiyyətsiz olduqda.

Maliyyə aktivlərinin modifikasiyası. Maliyyə aktivləri müqavilə şərtlərinə uyğun olaraq modifikasiya edildikdə (məs: onların şərtlərinə yenidən baxıldıqda), Bank bu modifikasiyanın əhəmiyyətli olub olmadığını və ilkin aktivin tanınmasının dayandırılmasına və yeni aktivin ədalətli dəyərlə tanınmasına gətirib çıxarmalı olub-olmadığını qiymətləndirir. Bu qiymətləndirmə əsasən müvafiq uçot siyasətində qeyd olunan keyfiyyət amillərinə əsaslanır və əhəmiyyətli mülahizələrin tətbiq olunmasını tələb edir. Xüsusilə, Bank şərtlərinə yenidən baxılmış dəyərsizləşmiş kredit müqavilələrinin tanınmasının dayandırılması, eləcə də yeni tanınmış kreditlərin ilkin tanınma zamanı dəyərsizləşmiş kreditlər kimi nəzərdən keçirilməsi kimi məsələlərə dair qərar qəbul edərkən mülahizə irəli sürür. Tanınmanın dayandırılması zərurəti ilə bağlı qərar belə modifikasiya nəticəsində risk və faydaların, yəni, gözlənilən pul axınlarının (müqavilədə nəzərdə tutulmayan pul axınları) dəyişməsindən asılıdır. Rəhbərlik belə kreditlərin modifikasiyası nəticəsində risk və faydaların dəyişmədiyini və buna görə də mahiyyət etibarilə bütün bu dəyişikliklərin və kreditlərin tanınmasının dayandırılmadığını və dəyərsizləşmiş kreditlər mərhələsindən yenidən təsnifləşdirilmədiyini müəyyən etmişdir.

Maliyyə aktivlərinin silinmə siyasəti. Maliyyə aktivlərini bərpa etmək üçün Bnakın bütün praktiki imkanları tükəndikdə və Bank belə aktivlərin bərpasına dair gözləntilərin əsaslandırılmadığı qənaətinə gəldikdə, maliyyə aktivləri tam və ya qismən silinir. Bərpasına dair əsaslandırılmış gözləntiləri olmayan pul axınlarının müəyyən edilməsi mülahizə tələb edir. Rəhbərlik bərpasına dair əsaslandırılmış gözləntiləri olmayan aktivlər üçün aşağıdakı amilləri nəzərdən keçirmişdir: likvidasiya prosesi və ya müflis olma proseduru, eləcə də məhkəmə qərarı. Rəhbərlik, həmçinin əvvəlki təcrübəyə əsaslanaraq, müddəti 90 gündən çox gecikdirilmiş kreditlər üzrə müqavilədə nəzərdə tutulan faizlərin qaytarılmayacağını hesab edir. Bu səbəbdən həmin faizlər müvafiq kreditlərin ümumi balans dəyərindən silinmişdir.

5 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi

BMHS 16-ya ("İcarə") keçid. Bank 1 yanvar 2019-cu il tarixindən etibarən BMHS 16-nı müəyyən sadələşmələr və istisnalar ilə birlikdə retrospektiv olaraq tətbiq etmişdir və 2018-ci hesabat ili üzrə müqayisəli məlumatları BMHS 16-da nəzərdə tutulan keçid müddəalarına uyğun olaraq dəyişdirməmişdir. Bu səbəbdən, icarənin uçotu ilə bağlı yeni tələblərdən yaranan yenidən təsnifləşdirmə və dəyişikliklər 1 yanvar 2019-cu il tarixinə bölüşdürülməmiş mənfəətə düzəliş kimi tanınır.

BMHS 16-ya keçid zamanı Bank daha əvvəl BMS 17-nin ("İcarələr") müddəalarına uyğun olaraq "əməliyyat icarəsi" kimi təsnifləşdirdiyi icarə müqavilələri üzrə öhdəlikləri tanımışdır. Bu öhdəliklər 1 yanvar 2019-cu il tarixinə icarəyə verənin borc üzrə artan faiz dərəcəsi ilə diskontlaşdırılmış icarə ödənişlərinin qalığı üzrə cari dəyərlə qiymətləndirilmişdir. 1 yanvar 2019-cu il tarixinə icarə öhdəliklərinə tətbiq edilən icarəyə verənin borc üzrə ortaçəkili artan faiz dərəcəsi 7.59% təşkil etmişdir.

BMHS 16-nı ilk dəfə tətbiq edərkən Bank bu standartda nəzərdə tutulan aşağıdakı praktiki istisnalardan istifadə etmişdir:

- əsaslı şəkildə oxşar xüsusiyyətlərə malik icarə portfelinə vahid diskont dərəcəsinin tətbiq edilməsi;
- dəyərsizləşmə təhlilinin aparılmasına alternativ olaraq icarə müqavilələrinin yükümlülüyü ilə bağlı əvvəlki qiymətləndirmələrə etibar edilməsi - 1 yanvar 2019-cu il tarixinə yükümlü müqavilələr mövcud olmamışdır;
- standartın ilk dəfə tətbiq olunma tarixinə ilkin birbaşa xərclərin istifadə hüquqlu aktivlərin qiymətləndirilməsinə aid edilməməsi;

5 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

Bank standartın ilk dəfə tətbiq olunduğu tarixdə müqavilənin özünün və ya ayrı-ayrı komponentlərinin icarə müqaviləsi olub-olmadığını yenidən qiymətləndirməmək qərarına gəlmişdir. Bunun əvəzində Bank BMS 17 ("İcarələr") və BMHŞK 4-ə ("Müqavilədə icarə elementinin mövcudluğunun müəyyən edilməsi") uyğun olaraq, yeni standarta keçməzdən əvvəl bağlanılmış müqavilələrin qiymətləndirilməsinə əsaslanır.

Aşağıdakı cədvəldə 31 dekabr 2018-ci il tarixinə əməliyyat icarəsi üzrə müqavilə öhdəlikləri ilə 1 yanvar 2019-cu il tarixində tanınan icarə öhdəliklərinin müqayisəsi göstərilir:

	1 yanvar 2019
31 dekabr 2018-ci il tarixinə əməliyyat icarəsi üzrə cəmi gələcək minimal lizinq ödənişləri	**7,711**
Cari dəyərin diskontlaşdırılmasının effekti	(1,523)
1 yanvar 2019-cu il tarixinə tanınmış icarə öhdəliyi	**6,188**
İcarəyə verənlərə verilmiş avanslar	186
1 yanvar 2019-cu il tarixinə istifadə hüquqlu aktivlər	**6,374**

Uçot siyasətindəki dəyişiklik 1 yanvar 2019-cu il tarixinə maliyyə vəziyyəti haqqında hesabatda aşağıdakı maddələrə təsir göstərmişdir:

	BMHS 16-ya keçidin təsiri
İstifadə hüquqlu aktivlərdə artım	6,374
İcarə öhdəliklərində artım	6,188
Verilmiş avanslarda azalma	186

Müvafiq istifadə hüquqlu aktivlər 31 dekabr 2018-ci il tarixinə balans hesabatında tanınan icarə müqaviləsi üzrə əvvəlcədən ödənilmiş və ya hesablanmış icarə ödənişləri nəzərə alınmaqla, icarə öhdəliyinə bərabər məbləğdə qiymətləndirilmişdir. Standartın ilk dəfə tətbiq olunduğu tarixdə istifadə hüquqlu aktivlər üzrə dəyişikliklərin aparılmasını tələb edən yükümlü icarə müqavilələri mövcud olmamışdır.

Tanınmış istifadə hüquqlu aktivlər aşağıdakı növ aktivlərə aid edilir:

	31 dekabr 2019	1 yanvar 2019
Daxili istifadə üçün nəzərdə tutulmuş əmlak	5,392	5,624
Nəqliyyat vasitələri	359	651
Sair	-	99
Cəmi istifadə hüquqlu aktivlər	**5,751**	**6,374**

Tanınmış icarə öhdəlikləri aşağıdakı kimi təsnifləşdirilmişdir:

	31 dekabr 2019	1 yanvar 2019
Qısamüddətli hissə	1,389	1,913
Uzunmüddətli hissə	4,309	4,275
Cəmi icarə öhdəlikləri	**5,698**	**6,188**

5 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

2015-2017-ci illər üzrə BMHS-lərin illik təkmilləşdirilməsinə daxil edilən BMS 12 "Mənfəət vergisi" standartına dəyişikliklər. Bank 1 yanvar 2019-cu il tarixindən BMS 12 "Mənfəət vergisi" standartına dəyişiklikləri tətbiq etmişdir. Bu dəyişikliklər nəticəsində BMHS-ə uyğun olaraq kapitalda əks etdirilən, lakin vergi uçotu məqsədləri üçün öhdəlik hesab edilən müddətsiz maliyyə alətləri üzrə vergi ödənişləri artıq birbaşa olaraq kapitalda yox, mənfəət və ya zərərdə tanınır. Bunun səbəbi vergi ödənişlərinin səhmdarlara ödənilən dividendlərlə deyil, bölüşdürülə bilən mənfəəti yaradan keçmiş əməliyyat və ya hadisələrlə daha çox bağlı olmasıdır.

Aşağıdakı yenidən işlənmiş standartlar 1 yanvar 2019-cu il tarixindən qüvvəyə minmiş, lakin Banka əhəmiyyətli dərəcədə təsir göstərməmişdir:

- BMHŞK 23 "Mənfəət vergisinin uçotundan yaranan qeyri-müəyyənlik" (7 iyun 2017-ci ildə dərc olunub və 1 yanvar 2019-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).
- BMHS 9-a dəyişikliklər - "Mənfi kompensasiyanı nəzərdə tutan vaxtından əvvəl həyata keçirilmiş ödənişlərin xüsusiyyətləri" (12 oktyabr 2017-ci ildə dərc olunub və 1 yanvar 2019-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).
- BMS 28-ə dəyişikliklər "Asılı və birgə müəssisələrdə uzunmüddətli iştirak payları" (12 oktyabr 2017-ci ildə dərc olunub və 1 yanvar 2019-cu il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir).
- BMHS 3, BMHS 11, BMS 12 və BMS 23-ə dəyişikliklər - 2015-2017-ci illər üzrə BMHS-lərin təkmilləşdirilməsi (12 oktyabr 2017-ci ildə dərc olunub və 1 yanvar 2019-cu il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir).
- BMS 19-a dəyişikliklər "Pensiya planının dəyişdirilməsi, azaldılması və tənzimlənməsi" (7 fevral 2018-ci ildə dərc olunub və 1 yanvar 2019-cu il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir).

6 Yeni uçot qaydaları

1 yanvar 2020-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün məcburi xarakter daşıyan və Bank tərəfindən vaxtından əvvəl tətbiq edilməyən bəzi yeni standartlar və onlara dair şərhlər dərc olunmuşdur.

BMHS 17 "Sığorta müqavilələri" (18 may 2017-ci ildə dərc olunub və 1 yanvar 2021-ci il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir). BMHS 17 şirkətlərə sığorta müqavilələrinin uçotu üzrə mövcud praktikanı tətbiq etməyə icazə verən BMHS 4-ü əvəz edir. BMHS 4-ə əsasən investorlar analoji sığorta şirkətlərində maliyyə nəticələrini müqayisə etmək və üzləşdirməkdə çətinlik çəkirdilər. BMHS 17 sığortaçının təkrar sığorta müqavilələri daxil olmaqla, bütün növ sığorta müqavilələrinin uçotu standartının prinsiplərinə əsaslanan yeganə standartdır. Bu standartın tələbinə görə sığorta müqavilələri qrupları (i) müqavilələrin yerinə yetirilməsi üçün nağd pul axınları üzrə mövcud olan bütün məlumatları müşahidə edilə bilən bazar məlumatlarına uyğun olaraq nəzərə alan riskə görə düzəldilmiş gələcək nağd pul axınlarının diskont dəyəri ilə (müqavilələrin yerinə yetirilməsi üzrə nağd pul axınları); (ii) müqavilələr qrupu üzrə bölüşdürülməmiş mənfəəti (müqavilələr üzrə servis marjası) toplamaqla (dəyər öhdəlik olduqda) və ya çıxmaqla (dəyər aktiv olduqda) tanınmalı və qiymətləndirilməlidir. Sığortaçılar sığorta müqavilələri qrupundan yaranan gəliri sığorta proqramını təqdim etdiyi dövr ərzində, eləcə də riskdən azad olunduğu halda əks etdirəcəklər. Müqavilələr qrupu üzrə zərər mövcuddursa və ya mövcud olarsa müəssisə dərhal zərəri əks etdirəcək.

Maliyyə hesabatlarının hazırlanması və təqdim olunması üzrə Konseptual Əsaslara düzəlişlər (29 mart 2018-ci ildə dərc olunub və 1 yanvar 2020-ci il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir). Yenidən işlənmiş Konseptual Əsaslara qiymətləndirməyə dair yeni bölmə, hesabatlarda maliyyə nəticələrinin əks etdirilməsinə dair tövsiyələr, təkmilləşdirilmiş anlayışlar və tövsiyələr (xüsusilə, öhdəliklər ilə bağlı anlayış) və maliyyə hesabatlarının hazırlanmasında idarəetmə rolu, ehtiyatlılıq və qiymətləndirmə ilə bağlı qeyri-müəyyənlik kimi mühüm məsələlərin izahı daxildir.

6 Yeni uçot qaydaları (davamı)

BMHS 3-ə dəyişikliklər - Biznes anlayışı (22 oktyabr 2018-ci ildə dərc olunub və 1 yanvar 2020-ci il və ya bu tarixdən sonra başlanan illik hesabat dövrünün əvvəlindən həyata keçirilən satınalmalar üçün qüvvəyə minir). Bu dəyişikliklər biznes anlayışını dəyişdirir. Biznes resurslardan və birlikdə nəticə yaratmaq imkanı formalaşdıran əsas proseslərdən ibarətdir. Yeni təlimat erkən inkişaf mərhələsində olan və nəticə əldə etməyən şirkətlər də daxil olmaqla, resursların və əsas prosesin mövcudluğunu müəyyən etməyə imkan verən sistemi özündə əks etdirir. Müəssisənin biznes hesab edilməsi üçün heç bir nəticə olmadıqda, mütəşəkkil işçi qüvvəsi olmalıdır. "Nəticə" anlayışı müştərilərə təqdim edilən mallara və göstərilən xidmətlərə, eləcə də investisiya gəlirləri və digər gəlirlərin yaradılmasına diqqəti yönəltmək, xərclərin və digər iqtisadi faydaların azaldılması şəklində nəticələri nəzərə almamaq üçün məhdudlaşdırılmışdır. Bundan əlavə, bazar iştirakçılarının çatışmayan elementləri əvəz etməsi və ya əldə edilmiş biznesi və aktivləri inteqrasiya etməsi imkanının qiymətləndirilməsi artıq tələb olunmur. Məssisə "konsentrasiya testi" tətbiq edə bilər. Əldə edilmiş ümumi aktivlərin ədalətli dəyəri bütövlükdə praktiki olaraq vahid aktiv (yaxud oxşar aktivlər qrupu) şəklində konsentrasiya edildiyi halda, əldə edilmiş aktivlər biznes hesab edilməyəcəkdir.

BMS 1 və BMS 8-ə dəyişikliklər - Əhəmiyyətlilik anlayışı (31 oktyabr 2018-ci ildə dərc olunub və 1 yanvar 2020-ci il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir). Bu dəyişikliklər bundan əvvəlki BMHS standartlarında qeyd olunan anlayışa dair tövsiyələri əlavə etməklə, əhəmiyyətlilik anlayışı və onun tətbiq olunma qaydasını izah edir. Bundan əlavə, həmin anlayışın izahı təkmilləşdirilmişdir. Dəyişikliklər, həmçinin əhəmiyyətlilik anlayışının bütün BMHS standartlarında uyğun şəkildə istifadəsini təmin edir. Məlumat o halda əhəmiyyətli hesab olunur ki, onun ümumi təyinatlı maliyyə hesabatlarında təqdim edilməməsi, təhrif olunması və ya anlaşıqlığının çətinləşdirilməsinin əsas istifadəçilərin xüsusi olaraq hesabat verən müəssisəyə aid olan maliyyə məlumatları əsasında qəbul etdikləri qərarlara təsir etmə ehtimalı əsaslandırılmış şəkildə gözlənilsin.

"İnvestor tərəfindən aktivlərin asılı və ya birgə müəssisələrə satılması və ya ötürülməsi" - BMHS 10 və BMS 28-ə dəyişikliklər (11 sentyabr 2014-cü ildə dərc olunub və BMUSŞ tərəfindən müəyyən ediləcək tarixdə və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu dəyişikliklər investor tərəfindən aktivlərin asılı və ya birgə müəssisələrə satılması və ya ötürülməsi ilə bağlı BMHS 10 və BMS 28-in tələbləri arasındakı uyğunsuzluğu aradan qaldırır. Dəyişikliklərin əsas nəticəsi ondan ibarətdir ki, mənfəət və zərər əməliyyatın biznesə aid olduğu halda tam tanınır. Aktivlər özündə biznesi əks etdirmədikdə, hətta bu aktivlər törəmə müəssisəyə məxsus olsa belə, mənfəət və ya zərərin yalnız bir hissəsi tanınır.

Yuxarıda başqa cür nəzərdə tutulmadığı hallarda, yeni standartlar və şərhlərin Bankın maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsiri gözlənilmir.

7 Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakılardan ibarətdir:

	2019	2018
Nağd pul	24,381	33,323
ARMB-dəki cari hesablar	67,271	34,307
ARMB-dəki qısamüddətli depozitlər	18,033	7,726
Digər kredit təşkilatlarındakı cari hesablar	92,932	88,254
Kredit zərərləri üzrə ehtiyat çıxılmaqla	(221)	(178)
Pul vəsaitləri və onların ekvivalentləri	**202,396**	**163,432**

31 dekabr 2019-cu il tarixinə Bankın ARMB-də ödəmə müddəti 13 yanvar 2019-cu il tarixində (2018: 7 yanvar 2019) başa çatan və illik faiz dərəcəsi 5.76% (2018: illik 7.76% – 8.92%) təşkil edən 17,940 AZN (2018: 7,694 AZN) məbləğində qısamüddətli depozitləri olmuşdur.

7 Pul vəsaitləri və onların ekvivalentləri (davamı)

Digər kredit təşkilatlarındakı cari hesabların 5,088 AZN (2018: 8,563 AZN) və 78,879 AZN (2018: 69,389 AZN) məbləğində hissəsi rezident və qeyri-rezident banklarda yerləşdirilmiş faiz hesablanan hesabları əks etdirir.

31 dekabr 2019-cu il tarixinə pul vəsaitləri və onların ekvivalentləri üzrə kredit riskinin ödəmə qabiliyyəti dərəcələrinə görə təhlili aşağıdakı cədvəldə göstərilir. Bankın kredit riskinin təsnifatı sistemi Qeyd 23-də təsvir edilir.

	ARMB-dəki qalıqlar, məcburi ehtiyatlar çıxılmaqla	Digər kredit təşkilatlarındakı cari hesablar	Cəmi
- Ən yüksək dərəcə	-	77,723	77,723
- Yüksək dərəcə	85,161	15,131	100,292
Cəmi pul vəsaitləri və onların ekvivalentləri, nağd pul çıxılmaqla	**85,161**	**92,854**	**178,015**

Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi məqsədilə pul vəsaitləri və onların ekvivalentləri 1-ci Mərhələyə aid edilmişdir. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi yanaşması Qeyd 23-də göstərilir.

31 dekabr 2018-ci il tarixinə pul vəsaitləri və onların ekvivalentləri üzrə kredit riskinin ödəmə qabiliyyəti dərəcələrinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

	ARMB-dəki qalıqlar, məcburi ehtiyatlar çıxılmaqla	Digər kredit təşkilatlarındakı cari hesablar	Cəmi
- Ən yüksək dərəcə	-	9,653	9,653
- Yüksək dərəcə	41,931	78,525	120,456
Cəmi pul vəsaitləri və onların ekvivalentləri, nağd pul çıxılmaqla	**41,931**	**88,178**	**130,109**

31 dekabr 2019-cu il tarixinə digər kredit təşkilatlarındakı qalıqların 70,811 AZN məbləğində hissəsi və ya 76%-i (2018: 67,800 AZN və ya 77%) bir maliyyə təşkilatına aiddir (2018: bir maliyyə təşkilatı).

Əlaqəli tərəflərlə əməliyyatlar haqqında məlumat Qeyd 25-də açıqlanır.

8 Kredit təşkilatlarından alınacaq vəsaitlər

Kredit təşkilatlarından alınacaq vəsaitlər aşağıdakılardan ibarətdir:

	2019	2018
Banklarda yerləşdirilmiş qısamüddətli depozitlər	18,639	59,321
ARMB-dəki məcburi ehtiyatlar	2,457	2,813
Kredit təşkilatlarından alınacaq vəsaitlər (ümumi)	**21,096**	**62,134**
Dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla	(110)	(104)
Kredit təşkilatlarından alınacaq vəsaitlər (xalis)	**20,986**	**62,030**

8 Kredit təşkilatlarından alınacaq vəsaitlər (davamı)

Kredit təşkilatları müştərilərdən cəlb edilmiş vəsaitlərin həcmindən asılı olaraq Mərkəzi Bankda faizsiz pul depozitləri (məcburi ehtiyatlar) saxlamalıdırlar. Bankın bu depoziti geri almaq imkanı qanunvericiliklə məhdudlaşdırılır.

31 dekabr 2019-cu il tarixinə Bankın digər banklarda ödəmə müddəti 2020-ci ilin fevral-may-oktyabr aylarında (2018: fevral-may 2019-cu il) başa çatan və illik faiz dərəcəsi 3.0% - 7.5% (2018: illik 3.0% - 3.8%) təşkil edən 18,639 AZN məbləğində (2018: 59,321 AZN) qısamüddətli depozitləri olmuşdur.

31 dekabr 2019-cu il tarixinə kredit təşkilatlarından alınacaq vəsaitlərin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir. Kredit təşkilatlarından alınacaq vəsaitlərin hər bir kateqoriyasının təxmin edilən ədalətli dəyəri haqqında məlumat üçün Qeyd 24-ə baxın. Kredit təşkilatlarından alınacaq vəsaitlərin faiz dərəcəsi üzrə təhlili Qeyd 23-də göstərilir. Əlaqəli tərəflərlə əməliyyatlar haqqında məlumat Qeyd 25-də açıqlanır.

	1-ci Mərhələ (12 aylıq ECL)	Cəmi
Kredit təşkilatlarında yerləşdirilmiş depozitlər		
- Ən yüksək dərəcə	-	-
- Yüksək dərəcə	21,096	21,096
Ümumi balans dəyəri	**21,096**	**21,096**
Kredit zərərləri üzrə ehtiyat	(110)	(110)
Cəmi kredit təşkilatlarından alınacaq vəsaitlər (balans dəyəri)	**20,986**	**20,986**

31 dekabr 2018-ci il tarixinə kredit təşkilatlarından alınacaq vəsaitlərin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

	1-ci Mərhələ (12 aylıq ECL)	Cəmi
Kredit təşkilatlarında yerləşdirilmiş depozitlər		
- Ən yüksək dərəcə	38,370	38,370
- Yüksək dərəcə	23,764	23,764
Ümumi balans dəyəri	**62,134**	**62,134**
Kredit zərərləri üzrə ehtiyat	(104)	(104)
Cəmi kredit təşkilatlarından alınacaq vəsaitlər (balans dəyəri)	**62,030**	**62,030**

9 Müştərilərə verilmiş kreditlər

Müştərilərə verilmiş kreditlər aşağıdakılardan ibarətdir:

	31 dekabr 2019	31 dekabr 2018
Müştərilərə verilmiş amortizasiya olunmuş dəyərdə qiymətləndirilən kreditlərin ümumi balans dəyəri	204,171	191,385
Kredit zərərləri üzrə ehtiyat çıxılmaqla	(43,493)	(46,554)
Cəmi müştərilərə verilmiş amortizasiya olunmuş dəyərdə qiymətləndirilən kreditlərin balans dəyəri	**160,678**	**144,831**
Cəmi müştərilərə verilmiş kreditlər	**160,678**	**144,831**

31 dekabr 2019-cu il tarixinə kreditlərin ümumi məbləğinin 37.6%-i (2018: 35.5%-i) xarici valyutalarda ifadə edilmişdir.

31 dekabr 2019 və 31 dekabr 2018-ci il tarixinə müştərilərə verilmiş amortizasiya olunmuş dəyərdə qiymətləndirilən kreditlərin ümumi balans dəyəri və kredit zərərləri üzrə ehtiyatın kateqoriyalar üzrə təhlili aşağıdakı cədvəldə göstərilir:

	31 dekabr 2019			31 dekabr 2018		
	Ümumi balans dəyəri	Kredit zərərləri üzrə ehtiyat	Balans dəyəri	Ümumi balans dəyəri	Kredit zərərləri üzrə ehtiyat	Balans dəyəri
Korporativ kreditlər	129,808	23,323	106,485	106,858	22,667	84,191
Biznes kreditləri	14,946	8,310	6,636	19,447	9,061	10,386
İstehlak kreditləri	49,096	10,241	38,855	55,587	13,224	42,363
İpoteka kreditləri	10,321	1,619	8,702	9,493	1,602	7,891
Cəmi müştərilərə verilmiş amortizasiya olunmuş dəyərdə qiymətləndirilən kreditlər	**204,171**	**43,493**	**160,678**	**191,385**	**46,554**	**144,831**

Hüquqi şəxslərə verilmiş kredit növlərinin daha ətraflı təsviri aşağıda göstərilir:

- Korporativ kreditlər – kommersiya müəssisələrinə verilmiş kreditlərdir;
- Biznes kreditləri – kiçik və orta sahibkarlıq subyektlərinə verilmiş kreditlərdir;
- İstehlak kreditləri – şəxsi ehtiyaclar üçün fiziki şəxslərə verilmiş kreditlərdir;
- İpoteka kreditləri – ipoteka məqsədləri üçün fiziki şəxslərə verilmiş kreditlərdir.

9 Müştərilərə verilmiş kreditlər (davamı)

Hesabat dövrünün əvvəli və sonu ilə müqayisəli dövrlər arasındakı müddətdə müştərilərə verilmiş kreditlər üçün kredit zərərləri üzrə ehtiyatda və ümumi amortizasiya olunmuş dəyərdə dəyişikliklər aşağıdakı cədvəldə göstərilir:

	Kredit zərərləri üzrə ehtiyat				Ümumi balans dəyəri			
	1-ci Mərhələ (12 aylıq ECL)	2-ci Mərhələ (SICR zamanı bütöv müddət üçün ECL)	3-cü Mərhələ (dəyərsizləşmiş aktivlər üzrə bütöv müddət üçün ECL)	Cəmi	1-ci Mərhələ (12 aylıq ECL)	2-ci Mərhələ (SICR zamanı bütöv müddət üçün ECL)	3-cü Mərhələ (dəyərsizləşmiş aktivlər üzrə bütöv müddət üçün ECL)	Cəmi
Korporativ kreditlər								
31 dekabr 2018-ci il tarixinə	**379**	**347**	**21,942**	**22,668**	**60,645**	**11,462**	**34,751**	**106,858**
Dövr üzrə kredit zərərləri üçün ehtiyata təsir edən dəyişikliklər:								
Köçürmələr:								
- bütöv müddət üçün gözlənilən kredit zərərinə (1-ci Mərhələdən 2-ci Mərhələyə)	(429)	429	-	-	(3,040)	3,040	-	-
- dəyərsizləşmiş aktivlərə (1-ci və 2-ci Mərhələdən 3-cü Mərhələyə)	-	(101)	101	-	-	(101)	101	-
- 12 aylıq gözlənilən kredit zərərinə (2-ci və 3-cü Mərhələdən 1-ci Mərhələyə)	-	-	-	-	-	-	-	-
Yeni yaradılmış və ya alınmış	707	1,584	1,743	4,034	80,607	4,587	3,243	88,437
Dövr ərzində tanınması dayandırılmış	(247)	(243)	(872)	(1,362)	(47,707)	(11,219)	(1,638)	(60,564)
Digər dəyişikliklər	(32)	(1)	(241)	(274)	(2,184)	(37)	274	(1,947)
Dövr üzrə kredit zərərləri üçün ehtiyat ayırmalarına təsir edən cəmi dəyişikliklər	**378**	**2,015**	**22,673**	**25,066**	**88,321**	**7,732**	**36,731**	**132,784**
Dövr üzrə kredit zərərləri üçün ehtiyat ayırmalarına təsir etməyən dəyişikliklər:								
Silinmələr	-	-	(1,743)	(1,743)	-	-	(2,976)	(2,976)
31 dekabr 2019-cu il tarixinə	**378**	**2,015**	**20,930**	**23,323**	**88,321**	**7,732**	**33,755**	**129,808**

9 Müştərilərə verilmiş kreditlər (davamı)

	Kredit zərərləri üzrə ehtiyat				Ümumi balans dəyəri			
	1-ci Mərhələ (12 aylıq ECL)	2-ci Mərhələ (SICR zamanı bütöv müddət üçün ECL)	3-cü Mərhələ (dəyərsiz-ləşmiş aktivlər üzrə bütöv müddət üçün ECL)	Cəmi	1-ci Mərhələ (12 aylıq ECL)	2-ci Mərhələ (SICR zamanı bütöv müddət üçün ECL)	3-cü Mərhələ (dəyərsiz-ləşmiş aktivlər üzrə bütöv müddət üçün ECL)	Cəmi
Korporativ kreditlər								
1 yanvar 2018-ci il tarixinə	**118**	**3,307**	**15,585**	**19,010**	**28,597**	**21,422**	**23,718**	**73,737**
Dövr üzrə kredit zərərləri üçün ehtiyata təsir edən dəyişikliklər:								
Köçürmələr:								
- bütöv müddət üçün gözlənilən kredit zərərinə (1-ci Mərhələdən 2-ci Mərhələyə)	(6)	6	-	-	(1,422)	1,422	-	-
- dəyərsizləşmiş aktivlərə (1-ci və 2-ci Mərhələdən 3-cü Mərhələyə)	(37)	(1,970)	2,007	-	(80)	(4,650)	4,730	-
- 12 aylıq gözlənilən kredit zərərinə (2-ci və 3-cü Mərhələdən 1-ci Mərhələyə)	3	(3)	-	-	598	(598)	-	-
Yeni yaradılmış və ya alınmış	363	309	2,121	2,793	58,213	10,266	4,044	72,523
Dövr ərzində tanınması dayandırılmış	(112)	(1,546)	(2,015)	(3,673)	(27,970)	(14,465)	(3,441)	(45,876)
Digər dəyişikliklər	50	244	4,243	4,537	2,709	(1,935)	5,700	6,474
31 dekabr 2018-ci il tarixinə	**379**	**347**	**21,941**	**22,667**	**60,645**	**11,462**	**34,751**	**106,858**

9 Müştərilərə verilmiş kreditlər (davamı)

	Kredit zərərləri üzrə ehtiyat				Ümumi balans dəyəri			
	2-ci Mərhələ (SICR zamanı bütöv müddət üçün ECL)	3-cü Mərhələ (dəyərsiz-ləşmiş aktivlər üzrə bütöv müddət üçün ECL)	Cəmi	1-ci Mərhələ (12 aylıq ECL)	2-ci Mərhələ (SICR zamanı bütöv müddət üçün ECL)	3-cü Mərhələ (dəyərsiz-ləşmiş aktivlər üzrə bütöv müddət üçün ECL)	Cəmi	Total
Biznes kreditləri								
31 dekabr 2018-ci il tarixinə	**20**	**34**	**9,007**	**9,061**	**3,237**	**1,499**	**14,711**	**19,447**
Dövr üzrə kredit zərərləri üçün ehtiyata təsir edən dəyişikliklər:								
Köçürmələr:								
- bütöv müddət üçün gözlənilən kredit zərərinə (1-ci Mərhələdən 2-ci Mərhələyə)	(34)	34	-	-	(92)	92	-	-
- dəyərsizləşmiş aktivlərə (1-ci və 2-ci Mərhələdən 3-cü Mərhələyə)	-	(14)	14	-	-	(737)	737	-
- 12 aylıq gözlənilən kredit zərərinə (2-ci və 3-cü Mərhələdən 1-ci Mərhələyə)	-	-	-	-	-	-	-	-
Yeni yaradılmış və ya alınmış	5	-	9	14	829	-	16	845
Həddindən artıq risk konsentrasiyası. Konsentrasiya biznes tərəfdaşlarının oxşar iş fəaliyyəti ilə məşğul olmasından, iş növünün eyni coğrafi regionda yer almasından, eyni iqtisadi xüsusiyyətlərə malik olması və nəticədə iqtisadi, siyasi və ya digər şərtlərdəki dəyişikliklərin həmin biznes tərəfdaşlarının müqavilələrdə göstərilmiş şərtlərin yerinə yetirilməsi imkanlarına oxşar təsir göstərməsindən yaranır. Konsentrasiya Bankın fəaliyyətinin xüsusi coğrafi yerlərə və sənaye sahələrinə təsir göstərən dəyişikliklərə həssaslığını göstərir.

Həddindən artıq risk konsentrasiyasının təsiri altına düşməmək üçün, Bankın daxili siyasət və prosedurlarına diversifikasiyalı portfelin dəstəklənməsinə yönəlmiş xüsusi prinsiplər daxil edilir. Müəyyən edilmiş risk konsentrasiyası müvafiq qaydada nəzarət və idarə olunur.

Kredit riski. Maliyyə aləti ilə əməliyyat aparan bir tərəfin müqavilə öhdəliyini yerinə yetirməməsi nəticəsində digər tərəfə maliyyə zərəri vurularsa, Bank kredit riskinə məruz qalır.

Kredit riski Bankın qarşı tərəflərlə həyata keçirdiyi kredit və digər əməliyyatlar nəticəsində yaranır ki, bu da maliyyə aktivlərinin və balansdankənar kredit öhdəliklərin yaranmasına səbəb olur.

Bankın məruz qaldığı kredit riskinin maksimal səviyyəsi maliyyə vəziyyəti haqqında hesabatda maliyyə aktivlərinin balans dəyərində əks etdirilir. Təqdim edilmiş maliyyə zəmanətləri, kreditlərin verilməsi ilə bağlı öhdəliklər, istifadə edilməmiş kredit xətləri və ixrac/idxal akkreditivləri üçün maksimal kredit riski öhdəliyin məbləğidir.

Kreditlə bağlı təəhhüd riskləri. Bank müştərilərə zəmanətlər verir. Həmin zəmanətlər Bankın müştərilərin adından ödənişlər aparmağını tələb edə bilər. Müştərilər bu ödənişləri Banka akkreditivin şərtləri əsasında qaytarırlar. Onlar Bankı kreditlərlə oxşar risklərə məruz qoyur, bunlar da eyni nəzarət prosesləri və qaydaları ilə azaldılır.

Maliyyə vəziyyəti haqqında hesabatın komponentləri üzrə kredit riskinin maksimal həcmi, qarşılıqlı hesablaşma haqqında əsas razılaşmaların və girov razılaşmalarının istifadə edilməsi nəticəsində riskin azalmasını nəzərə almadan, daha yaxşı həmin komponentlərin balans dəyərləri ilə əks etdirilir.

23 Risklərin idarə olunması (davamı)

Maliyyə aktivlərinin növləri üzrə kreditin keyfiyyəti. Maliyyə aktivlərinin kredit keyfiyyəti Bankın daxili kredit reytinqləri ilə idarə olunur. Aşağıdakı cədvəldə Bankın kredit reytinqi sisteminə əsaslanaraq maliyyə vəziyyəti haqqında hesabatın kreditlə bağlı sətirlərində aktivlərin sinifləri üzrə kredit keyfiyyəti göstərilir.

Bank kredit riskini ayrı-ayrı biznes tərəfdaşları və coğrafi və sənaye konsentrasiyaları üzrə Bankın qəbul etməyə hazır olduğu riskin həcmi üzrə limitləri müəyyən etməklə və həmin limitlərə riayət edilməni monitorinq etməklə idarə edir və nəzarət altında saxlayır.

Bank kredit keyfiyyətinin yoxlanılması prosesini təsis etmişdir ki, girovun müntəzəm qaydada yenidən baxılması da daxil olmaqla biznes tərəfdaşlarının krediti ödəmək qabiliyyətlərində mümkün dəyişikliklərin tez müəyyən edilməsi təmin edilsin. Biznes tərəfdaşları üzrə limitlər hər bir biznes tərəfdaşına risk reytinqi verən kredit riskinin təsnifləşdirilməsi sistemindən istifadə etməklə müəyyən edilir. Kredit risklərini azaltmaq məqsədilə Bank fəal şəkildə girovdan istifadə edir.

Gözlənilən kredit zərərlərinin (ECL) qiymətləndirilməsi. ECL gələcək pul axınlarındakı azalmaların ehtimal ilə ölçülmüş cari dəyərinin qiymətləndirilməsidir (yəni, müəyyən müddət ərzində çəki qismində müvafiq defolt riskləri istifadə olunmaqla kredit zərərlərinin orta çəkisidir). ECL-in qiymətləndirilməsi obyektivdir və gələcəkdə makroiqtisadi vəziyyətin inkişafı üzrə gözləntilərə defolt riskinin uyğunlaşdırılması yolu ilə müəyyən edilir. ECL-in qiymətləndirilməsi Bank tərəfindən istifadə olunan dörd parametr əsasında həyata keçirilir: defolt ehtimalı ("PD"), defolta məruz qalan dəyər ("EAD"), defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ ("LGD") və diskont dərəcəsi ("DR").

Defolt anlayışı. Aşağıdakı halda Bank defolt vəziyyətinin yarandığını hesab edir.

- Kreditin ödənişi 90 gündən artıq gecikdirildikdə.

Gözlənilən kredit zərərləri maliyyə alətinin *bütöv müddəti* üzrə modelləşdirilir. *Bütöv müddət* borc alətlərinin bitmə tarixinədək qalan müddət ərzində gözlənilən hər hansı qabaqcadan ödənişlər nəzərə alınmaqla müəyyənləşdirilir. Kreditlərin verilməsi üzrə öhdəliklər və maliyyə zəmanəti müqavilələri üçün bu, Bankın kredit vermək üçün cari müqavilə öhdəliyinə malik olduğu müddət ərzində müqavilə ilə müəyyən edilmiş müddətdir. Müqavilədə nəzərdə tutulan ödəmə müddəti əsasında bütöv müddət üzrə potensial zərərlərin müəyyən edilməsi prinsipinə istisna olaraq fiziki şəxslərə verilmiş kredit kartları üzrə bütöv müddət üçün potensial zərərlər kredit kartları üzrə müqavilələrin gözlənilən müddəti və daxili statistikaya əsaslanan dövr ərzində müəyyən edilir və orta hesabla 3-5 il təşkil edir.

"Bütöv müddət üzrə ECL" modelində maliyyə alətinin qalan müddəti ərzində bütün mümkün defolt hadisələrinin baş verməsi nəticəsində yaranan zərərlər qiymətləndirilir. "12 aylıq ECL" modeli hesabat dövründən sonra 12 ay ərzində və ya bitmə tarixinə bir ildən az qalmış maliyyə alətinin qalan müddəti ərzində hesablanır və bitmə tarixinədək qalan müddət üzrə gözlənilən kredit zərərlərinin bir hissəsini təşkil edir.

ECL-in qiymətləndirilməsi üçün Bank üç yanaşma tətbiq edir: (i) fərdi qaydada qiymətləndirmə; (ii) portfel əsasında qiymətləndirmə: daxili reytinqlər fərdi qaydada qiymətləndirilir, lakin eyni kredit riski reytinqləri və eyni kredit portfeli seqmentləri üçün ECL-in hesablanması prosesində eyni kredit riski parametrləri (məsələn, PD, LGD) tətbiq edilir; və (iii) xarici reytinqlər əsasında qiymətləndirmə.

Hazırkı maliyyə hesabatlarında tanınmış ECL səviyyəsi ilkin tanınmadan sonra borcalanın kredit riskinin əhəmiyyətli dərəcədə dəyişməsindən asılıdır. Bu yanaşma gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi üçün üç mərhələli modelə əsaslanır. 1-ci Mərhələ - ilkin tanınma zamanı dəyərsizləşməmiş və həmin vaxtdan kredit riski əhəmiyyətli dərəcədə artmamış maliyyə aktivləri üzrə 12 aylıq ECL əsasında dəyərsizləşmə ehtiyatı tanınır. İlkin tanınma vaxtından etibarən kredit riski əhəmiyyətli dərəcədə artmış, lakin hələ dəyərsizləşmiş maliyyə aləti 2-ci Mərhələyə köçürülür və dəyərsizləşmə ehtiyatı bütöv müddət üçün gözlənilən kredit zərərləri əsasında tanınır. Maliyyə aləti dəyərsizləşdikdə 3-cü Mərhələyə köçürülür və dəyərsizləşmə ehtiyatı bütöv müddət üçün gözlənilən kredit zərərləri əsasında tanınır. Aktivin 3-cü Mərhələyə köçürülməsi nəticəsində Bank faiz gəlirini ümumi balans dəyəri əsasında tanımağı dayandırır və faiz gəlirini hesablayarkən gözlənilən kredit zərərləri çıxılmaqla, balans dəyərinə aktivin effektiv faiz dərəcəsini tətbiq edir.

Kredit riskinin əhəmiyyətli dərəcədə artması meyarı artıq yerinə yetirilmədikdə, maliyyə aləti 1-ci Mərhələyə geri köçürülür. Əgər maliyyə aktivi kredit riskinin əhəmiyyətli artması nəticəsində 2-ci Mərhələyə köçürülmüşdürsə, Bank həmin kredit riskinin aktuallığının saxlanması və ya dəyişdməsindən əmin olmaq üçün ona nəzarət edir.

23 Risklərin idarə olunması (davamı)

Defolt vəziyyətindən qayıtma defolt zamanı ona səbəb olmuş hadisələrin başa çatmasından asılıdır. Bu zaman iki ssenari müşahidə oluna bilər:

- 90 gündən artıq vaxtı keçmiş maliyyə aktivinin gecikmə müddəti 30 günə çatdıqda, bu artıq defolt hesab edilmir;
- digər defolt hadisələrinin təsir etdiyi vaxtı keçmiş maliyyə aktivləri ardıcıl olaraq 12 ay ərzində hər hansı defolt meyarına cavab vermədikdə, defolt statusundan çıxır;

Bu məntiq gecikmənin aradan qaldırılmasından sonrakı dövrdə maliyyə aktivinin defolt vəziyyətinə yenidən qayıtması ehtimalına əsasən aparılan təhlil nəticəsində müəyyən edilir.

Maliyyə zəmanətləri və kreditlərin verilməsi ilə bağlı öhdəliklər üzrə ECL-in qiymətləndirilməsi. Bu maliyyə alətləri üzrə ECl-in qiymətləndirilməsi balans riskləri üçün yuxarıda qeyd edilən eyni mərhələləri əks etdirir və EAD-nin hesablanması hissəsində fərqlənir. EAD kreditə konvertasiya əmsalı ("CCF") və gələcək əməliyyatlar (ExOff) üzrə müqavilə öhdəliyindən ibarətdir. Korporativ müştərilər üçün açılan, lakin istifadə edilməyən kredit xətləri, fiziki şəxslərə verilmiş kredit kartları və maliyyə zəmanətləri üçün CCF defolt zamanı borcların statistik təhlili əsasında müəyyən edilir. Overdraftlar üçün CCF kredit limitlərinin müştərilər tərəfindən istənilən zaman istifadə edilə bilməsinə görə 100% müəyyən edilir.

Daxili reytinqlər. PD modellərinin hazırlanması məqsədilə hər bir maliyyə aktivi üzrə risk profilinin fərqləndirilməsi üçün sadələşdirilmiş davranış qiymətləndirmə modelləri hazırlanmış və təkmilləşdirilmişdir.

Kredit riskinin təsnifatı portfel riskləri üzrə daxili proseslərin qiymətləndirilməsi və idarə edilməsi üçün banklar tərəfindən geniş istifadə edilən vasitədir. Kredit riskinin təsnifatı ümumilikdə müəyyən zaman anında mövcud olan məlumata əsasən gələcəkdə baş verməsi ehtimal olunan hadisənin proqnozlaşdırılması üçün müəyyən edilmiş statistik metoddur. Bu, xüsusilə banklara kredit almaq üçün müraciət edən müştərinin (müraciətin qiymətləndirilməsi modeli) və ya portfeldə artıq mövcud olan müştərinin defolt ehtimalını qiymətləndirməyə imkan yaradır (davranış qiymətləndirmə modeli).

Keçmiş ödəmə davranışının gələcək üçün effektiv göstərici olması kredit riskinin təsnifatı modelinin işlənib hazırlanması üçün əsas fərziyyə hesab edilir və beləliklə, həmin modellər keçmiş məlumatlara əsasən hazırlanmışdır. Xüsusilə, davranış modellərinin hazırlanması zamanı əvvəlki defolt vəziyyəti, kreditlərin əvvəlki istifadəsi, əvvəlki ödənişlər və ya ödənişlərin toplanmasına dair məlumatlardan istifadə edilir. Praktikada, kredit riskinin təsnifatı nəticələri əlaqəli atributlar və çəki əmsalları ilə birlikdə yüksək proqnozlu məlumatların xüsusiyyətlərini özündə əks etdirir. Ümumi reytinq hər bir xüsusiyyət üzrə ümumi göstəricilərdən formalaşır.

Kreditin verilməsi üzrə avtorizasiya səviyyələri, həmçinin korporativ, kommersiya və KOS müştərilərinin reytinqinə uyğun olaraq müəyyən edilir. Bu metodologiyanın məqsədi aşağı reytinqli müştərini yüksək reytinq səviyyələrinə, yüksək reytinqli müştərini isə aşağı reytinq səviyyələrinə təyin etməklə, kredit proseslərini risk əsasında optimallaşdırmaqdır.

Defoltun müəyyən edilməsi üçün Bank aşağıdakı meyarları nəzərə alır:

- ödənişin 90 gündən artıq gecikdirilməsi;
- Borcalanın Bankdan götürdüyü kreditlərdən ən azı birini qaytara bilməməsi (çarpaz defolt);
- Borcalanın mənfi kredit tarixçəsinə malik olması;
- Borcalanın ödəmə qabiliyyətinin pisləşməsi.

Kredit riskinin təsnifatı göstəricilərinə əsaslanan reytinqlər oxşar risk profilli maliyyə aktivlərini əks etdirir. Bu səbəbdən, defolt ehtimalları Bankın ümumi mənşəli riskləri (seqment və reytinqlər üzrə) əsasında hesablanır.

Kredit riskinin təsnifatı sistemi. Kredit riskinin qiymətləndirilməsi və kredit riskinin səviyyəsinə görə maliyyə alətlərinin təsnifləşdirilməsi məqsədilə Bank iki yanaşmadan: Daxili risk əsaslı reytinq sistemindən (IRB) və beynəlxalq reytinq agentlikləri (Standard & Poor's - "S&P", Fitch, Moody's) tərəfindən müəyyənləşdirilən xarici kredit reytinqi sistemindən istifadə edir. Kənar kredit reytinqləri və müəyyən edilmiş PD intervalları aşağıdakı cədvəldə göstərilir:

23 Risklərin idarə olunması (davamı)

Vahid şkala üzrə ödəmə qabiliyyəti dərəcələri	Kənar beynəlxalq reytinq agentliklərinin müvafiq reytinqləri (S&P)	Müvafiq PD intervalı
Ən yüksək dərəcə	Reytinqi AAA dan BB+ dək	0,01% - 0,5%
Yüksək dərəcə	Reytinqi BB dən B+ dək	0,51% - 3%
Orta dərəcə	B, B-	3% - 10%
Xüsusi monitorinq tələb edir	CCC+ dən CC- dək	10% - 99,9%
Defolt	C, D-I, D-II	100%

Vahid şkala üzrə kredit riskinin hər bir səviyyəsi üçün müəyyən ödəmə qabiliyyəti dərəcələri təyin olunur:

- *Ən yüksək dərəcə* – aşağı kredit riski olan yüksək keyfiyyətli aktivlər;
- *Yüksək dərəcə* – orta kredit riski olan kifayət qədər keyfiyyətli aktivlər;
- *Orta dərəcə* – qənaətbəxş kredit riski olan orta keyfiyyətli aktivlər;
- *Xüsusi monitorinq tələb edir* – daha ətraflı monitorinq və bərpaedici idarəetmə tələb edən kreditləşdirmə mexanizmləri; və
- *Defolt* – defolt hadisəsi baş vermis kreditləşdirmə mexanizmləri.

Kənar reytinqlər. Kontragentlərə kənar reytinqlər S&P, Moody's və Fitch kimi müstəqil beynəlxalq reytinq agentlikləri tərəfindən təyin edilir. Bu reytinqlər ictimaiyyətə açıqdır. Həmin reytinqlər və müvafiq PD intervalları aşağıdakı maliyyə alətlərinə tətbiq edilir: ARMB-dən alınacaq vəsaitlər, müxbir hesablar üzrə qalıqlar, o cümlədən overnayt depozitlər və depozitlər.

Defolt ehtimalı (PD). PD müəyyən müddət ərzində defoltun baş vermə ehtimalının qiymətləndirilməsidir. Hər bir maliyyə aktivi üzrə hesablanmış bütöv müddət üçün PD əyrisi portfelin müddətindən, reytinqindən və seqmentindən asılıdır. 12-aylıq defolt ehtimalı bütöv müddət üçün PD əyrisinin bir hissəsi kimi hesablanır. Bütöv müddət üçün defolt ehtimalının hesablanması üçün Bank seqment və məhsulun növündən asılı olaraq "Bayesian Scalar", "Weibull və Düzəliş Edilmiş Weibull paylanması" kimi fərqli statistik yanaşmalardan istifadə edir.

ECL-in hesablanması üçün iki növ defolt ehtimalından istifadə edilir: 12 aylıq və bütöv müddət üçün defolt ehtimalı. 12 aylıq defolt ehtimalının qiymətləndirilməsi əvvəlki dövrlər üzrə defolt haqqında mövcud olan ən son məlumatlara əsaslanır və zərurət yarandıqda, dəstəklənən proqnoz məlumatları da nəzərə alınır. Bütöv müddət üçün defolt ehtimalı maliyyə alətinin qalan müddəti ərzində defoltun baş vermə ehtimalının qiymətləndirilməsini əks etdirir və maliyyə alətinin bütün müddəti ərzində 12 aylıq defolt ehtimalının məbləğinə bərabərdir. Bütöv müddət üzrə defolt ehtimalının hesablanması üçün Bank seqmentdən və kreditin növündən (miqrasiya matrisi əsasında hesablanan 12 aylıq defolt ehtimalının ekstrapolyasiyası, əvvəlki dövrlər üzrə defolt məlumatları əsasında bütöv müddət üzrə defolt ehtimalı əyriləri) asılı olaraq müxtəlif statistik üsullardan, risklərin intensivliyi metodundan və digər yanaşmalardan istifadə edir.

Makroiqtisadi amillər. Bankın daxili proqnozları növbəti üç il ərzində gözlənilən makroiqtisadi inkişaf üzrə ən dəqiq təxminləri əks etdirir. Üç ildən sonra heç bir makroiqtisadi təsir nəzərə alınmamışdır. Müvafiq iqtisadi dəyişənlərin defolt ehtimalına təsiri həmin dəyişənlərdəki dəyişikliklərin əvvəlki dövrlərdə defolt səviyyəsinə təsirini aydınlaşdırmaq üçün statistik reqressiya təhlilindən istifadə etməklə müəyyən edilmişdir.

Digər iqtisadi proqnozlarda olduğu kimi, bu proqnozlarda da yüksək dərəcədə qeyri-müəyyənlik mövcuddur və bu səbədən, faktiki nəticələr proqnozlaşdırılan nəticələrdən əhəmiyyətli dərəcədə fərqlənə bilər. Bank hesab edir ki, bu proqnozlar mümkün nəticələrin ən dəqiq təxminlərini əks etdirir.

Defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ (LGD). LGD defolt baş verdiyi zaman yaranan zərərin qiymətləndirilməsidir. Bu, müqavilə üzrə ödənilməli gələcək pul axınları ilə borcalanın əldə etməsi gözlənilən pul axınları arasındakı fərqə əsaslanır. Gözlənilən zərərlər hesabat dövrünün sonunda cari dəyərə diskontlaşdırılır.

LGD kontragentin və maliyyə alətinin növündən asılıdır. LGD defolt hadisəsinin baş verməsindən sonra gözlənilən defolt vəziyyətindən qayıtma hallarına təsir edən amillər əsasında müəyyən edilir. LGD-nin hesablanması defolt vəziyyətindən qayıtma statistikasına əsasən hesablanır.

23 Risklərin idarə olunması (davamı)

LGD defolt olmuş kredit üzrə zərərin həcmi ilə ilə bağlı Bankın proqnozunu əks etdirir. LGD kontragentin növündən, iddianın növündən və prioritetindən, eləcə də girovun və ya digər kredit təminatının mövcudluğundan asılıdır.

12 aylıq və bütöv müddət üzrə LGD defolt hadisəsinin baş verməsindən sonra gözlənilən defolt vəziyyətindən qayıtma hallarına təsir edən amillər əsasında müəyyən edilir. LGD-nin qiymətləndirilməsi yanaşması üç mümkün mütoda bölünə bilər:

- LGD-nin girovun müəyyən xüsusiyyətləri əsasında qiymətləndirilməsi;
- LGD-nin defolt vəziyyətindən qayıtma statistikasına əsasən portfel əsasında hesablanması; və ya
- LGD-nin fərqli amillər və ssenarilərdən asılı olaraq fərdi qaydada müəyyən edilməsi.

LGD-ni hesablayarkən Bank girovun proqnozlaşdırılan dəyəri, əvvəlki dövrlərdə satış üzrə güzəştlər, həmçinin daşınmaz əmlak, pul və likvid qiymətli kağızlar ilə təmin edilmiş kreditlərə dair digər amillər kimi müəyyən xüsusiyyətləri nəzərə alır. LGD korporativ kreditlər və təminatlı/təminatsız fərdi kreditlər üzrə qalığın ödənilməsi ilə bağlı mövcud olan ən son statistik məlumatlardan istifadə etməklə kollektiv əsasda hesablanır.

Defolta məruz qalan dəyər (EAD). EAD hesabat dövründən sonra riskin məbləğində gözlənilən dəyişiklikləri nəzərə alaraq, gələcək defolt tarixində riskin qiymətləndirilməsi, o cümlədən əsas borc və faizlərin ödənilməsi və kredit öhdəlikləri üzrə vəsaitlərin gözlənilən istifadəsidir.

Bərpa olunan kreditlər üzrə EAD Kreditə Konvertasiya Əmsalından (CCF) istifadə etməklə qiymətləndirilir. CCF müəyyən müddət ərzində balansdankənar məbləğlərin balans öhdəliyinə çevrilməsi ehtimalını əks etdirən göstəricidir. Maliyyə zəmanətləri üzrə CCF beynəlxalq "Basel 3" standartına əsasən müəyyən edilir.

EAD maliyyə alətinin növünə görə fərqlənən gözlənilən ödəniş qrafikinə əsasən müəyyən edilir. Amortizasiya olunan maliyyə alətləri və birdəfəlik kreditlər üçün EAD borcalan tərəfindən 12 ay müddətinə və ya bütöv müddət üzrə ödənişlər əsasında müəyyən edilir. Bu zaman borcalan tərəfindən gözlənilən artıq ödəmə də nəzərə alınır. Hesablamaya, həmçinin vaxtından əvvəl ödəniş və ya yenidən maliyyələşdirmə ehtimalları daxildir. Bərpa olunan kreditlər üçün EAD istifadə edilmiş vəsaitlərin cari qalığını defolt anında qalan limitin gözlənilən istifadəsini nəzərdə tutan "Kreditə Konvertasiya Əmsalına" əlavə etməklə proqnozlaşdırılır. Bu fərziyyələr kreditin növü, cari istifadə limiti və müəyyən borcalanın davranış xüsusiyyətlərindən asılı olaraq dəyişir.

Maliyyə aktivlərinin mərhələlər üzrə təsnifatı

Hazırkı maliyyə hesabatlarında tanınmış ECL səviyyəsi maliyyə aktivinin üç mərhələli model üzrə hansı mərhələyə təsnifləşdirilməsindən asılıdır. 1-ci Mərhələdə - ilkin tanınma zamanı dəyərsizləşməmiş və həmin vaxtdan kredit riski əhəmiyyətli dərəcədə artmamış maliyyə aktivləri üzrə 12 aylıq ECL əsasında dəyərsizləşmə ehtiyatı tanınır. İlkin tanınma vaxtından etibarən kredit riski əhəmiyyətli dərəcədə artmış, lakin hələ dəyərsizləşmiş maliyyə aləti 2-ci Mərhələyə köçürülür və dəyərsizləşmə ehtiyatı bütöv müddət üçün gözlənilən kredit zərərləri əsasında tanınır. Maliyyə aləti dəyərsizləşdikdə 3-cü Mərhələyə köçürülür və dəyərsizləşmə ehtiyatı bütöv müddət üçün gözlənilən kredit zərərləri əsasında tanınır. Aktivin 3-cü Mərhələyə köçürülməsi nəticəsində Bank faiz gəlirini ümumi balans dəyəri əsasında tanımağı dayandırır və faiz gəlirini hesablayarkən gözlənilən kredit zərərləri çıxılmaqla, balans dəyərinə aktivin nominal faiz dərəcəsini tətbiq edir.

- *Kredit riskinin əhəmiyyətli dərəcədə artması (2-ci Mərhələ)*

İlkin tanınma vaxtından etibarən kredit riskində əhəmiyyətli dərəcədə artmən olub-olmamasının qiymətləndirilməsi bütün portfel üzrə aparılır (2-ci Mərhələ). 2-ci Mərhələni müəyyən etmək üçün istifadə edilən meyarların uyğunluğu Bankın Risklərin İdarə Edilməsi Departamenti tərəfindən mütəmadi olaraq nəzərdən keçirilir və təhlil edilir. Maliyyə aktivlərinin ödənişi 30 gündən artıq gecikdirildiyi halda, ilkin tanınma vaxtından kredit riskinin əhəmiyyətli dərəcədə artması fərziyyəsi təkzib edilmir.

23 Risklərin idarə olunması (davamı)

Aşağıdakı keyfiyyət, kəmiyyət və ya məhdudlaşdırıcı meyarlardan bir və ya bir neçəsi baş verdiyi təqdirdə, Bank maliyyə aləti üzrə kredit riskinin əhəmiyyətli dərəcədə artdığını hesab edir:

- ödəniş müddəti 31-90 gün gecikdirildikdə;
- vaxtı keçmiş kreditlər restrukturizasiya edildikdə;
- müştərilərə "xüsusi monitorinq tələb edir" ödəmə qabiliyyəti dərəcəsi təyin edildikdə;
- Müştərinin maliyyə vəziyyətinin pisləşməsi ilə bağlı rəhbərlik tərəfindən hər hansı digər məlumat təqdim edildikdə.

Kredit riskinin əhəmiyyətli dərəcədə artması meyarı artıq yerinə yetirilmədikdə, maliyyə aləti 6 aylıq karantin müddəti bitdikdən sonra 1-ci Mərhələyə geri köçürülür.

Maliyyə aktivi keyfiyyət göstəricisi əsasında 2-ci Mərhələyə köçürüldüyü halda, Bank həmin göstəricinin saxlanılması və ya dəyişdirilməsindən əmin olmaq üçün ona nəzarət edir.

ECL modellərinə daxil edilmiş proqnoz məlumatları. Kredit riskinin əhəmiyyətli dərəcədə artmasının qiymətləndirilməsi və gözlənilən kredit zərərlərinin hesablanması zamanı dəstəkləyici proqnoz məlumatlarından istifadə edilir. Bank kredit riski və gözlənilən kredit zərərlərindəki dəyişikliklərə uyğun olan bəzi əsas iqtisadi dəyişənləri müəyyən etmişdir. Bu iqtisadi dəyişənlərə dair proqnozlar ("əsas iqtisadi ssenari") Bank tərəfindən təqdim edilir və növbəti üç il üçün gözlənilən makroiqtisadi vəziyyətin ən dəqiq təxminlərini əks etdirir. Müvafiq iqtisadi dəyişənlərin PD, EAD və LGD-yə təsiri həmin dəyişənlərdəki dəyişikliklərin əvvəlki dövrlərdə defolt səviyyəsinə, eləcə də LGD və EAD-nin komponentlərinə təsirini aydınlaşdırmaq üçün statistik reqressiya təhlilindən istifadə etməklə müəyyən edilmişdir.

Əsas iqtisadi ssenariyə əlavə olaraq, Bankın Risklərin İdarə Edilməsi departamenti ssenari çəkiləri ilə yanaşı digər mümkün ssenariləri də təmin edir. İstifadə edilən digər ssenarilərin sayı qeyri-xətliliyin təmin edilməsi üçün əsas məhsulun hər bir növünün təhlili əsasında müəyyən edilir. Ssenarilərin sayı və xüsusiyyətləri hər bir hesabat tarixində yenidən qiymətləndirilir. Ssenari çəkiləri seçilmiş hər bir ssenarinin əks etdirdiyi mümkün nəticələrin həcmini nəzərə alaraq, statistik təhlil və ekspert mülahizəsi əsasında müəyyən edilir. SICR hər bir əsas və digər ssenarilər üçün bütöv müddət üzrə PD-ni müvafiq çəki ssenarilərinə, eləcə də kəmiyyət və məhdudlaşdırıcı meyarlara vurmaqla qiymətləndirilir. Bu, bütöv maliyyə alətinin 1-ci, 2-ci və ya 3-cü Mərhələlərə aid edilməsini və 12 aylıq və ya bütöv müddət üzrə ECL-in qeydə alınmasını müəyyən edir. Bu qiymətləndirmədən sonra Bank ECL-i ehtimalı ilə ölçülmüş 12 aylıq ECL (1-ci Mərhələ) və ya ehtimal ilə ölçülmüş bütöv müddət üzrə ECL (2-ci və 3-cü Mərhələlər) kimi qiymətləndirir. Ehtimal ilə ölçülmüş bu ECL-lər müvafiq ECL modelindəki hər bir ssenarini sınaqdan keçirməklə və müvafiq ssenari çəkisinə vurmaqla (ilkin məlumatların çəkisindən fərqli olaraq) müəyyən edilir.

Hər bir iqtisadi proqnozda olduğu kimi, onlarn reallaşması ilə bağlı fərziyyələr və ehtimallar yüksək dərəcəli qeyri-müəyyənliklə əlaqəlidir və buna görə də faktiki nəticələr proqnozlaşdırılan nəticələrdən əhəmiyyətli dərəcəd fərqlənə bilər. Bank bu proqnozları mümkün nəticələrin ən dəqiq təxminləri kimi hesab edir və seçilmiş ssenarilərin mümkün ssenarilərin diapazonunu düzgün əks etdirməsini müəyyən etmək üçün Bankın fərqli portfelləri daxilində qeyri-xətliliyi və assimetriyalılığı təhlil etmişdir.

Bank maliyyə aktivləri üzrə təxminlər və faktiki zərərlər arasındakı fərqlərin azaldılması üçün öz metodologiya və fərziyyələrini müntəzəm olaraq nəzərdən keçirir. Belə fərqlərin təhlili (bək-testinq) ən azı ildə bir dəfə aparılır.

ECL-in qiymətləndirilməsi metodologiyası üzrə bək-testinq nəticələri Bankın rəhbərliyinə təqdim edilir və səlahiyyətli şəxslərlə razılaşdırıldıqdan sonra modellərin və fərziyyələrin təkmilləşdirilməsi üçün növbəti addımlar müəyyən edilir.

23 Risklərin idarə olunması (davamı)

Bankın monetar aktiv və öhdəlikləri üzrə coğrafi konsentrasiya aşağıdakı kimidir:

	2019				2018			
	Azərbay-can	İƏİT	MDB və digər xarici ölkələr	Cəmi	Azərbay-can	İƏİT	MDB və digər xarici ölkələr	Cəmi
Aktivlər								
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri	114,592	87,731	73	202,396	83,833	79,384	215	163,432
Kredit təşkilatlarından alınacaq vəsaitlər	8,551	6,156	6,279	20,986	2,807	42,579	16,644	62,030
Müştərilərə verilmiş kreditlər	160,678	–	–	160,678	144,831	–	–	144,831
ARMB-nin notları və digər istiqrazlar	36,536	–	–	36,536	45,226	–	–	45,226
Sair maliyyə aktivləri	2,865	–	–	2,865	2,957	–	–	2,957
Cəmi aktivlər	**323,222**	**93,887**	**6,352**	**423,461**	**279,654**	**121,963**	**16,859**	**418,476**
Öhdəliklər								
Kredit təşkilatlarına ödəniləcək vəsaitlər	10,051	–	–	10,051	7,237	–	33	7,270
Müştərilərə ödəniləcək vəsaitlər	330,609	–	–	330,609	335,050	–	–	335,050
Sair maliyyə öhdəlikləri	9,341	–	–	9,341	3,179	–	–	3,179
Cəmi öhdəliklər	**350,001**	**-**	**-**	**350,001**	**345,466**	**-**	**33**	**345,499**
Xalis aktivlər / (öhdəliklər)	**(26,779)**	**93,887**	**6,352**	**73,460**	**(65,812)**	**121,963**	**16,826**	**72,977**

Likvidlik riski və maliyyələşdirmənin idarə edilməsi

Likvidlik riski adi və ya fövqəladə şəraitdə ödəniş tarixində Bankın ödənişlə bağlı öhdəliklərini yerinə yetirə bilməməsi riskidir. Bu riski məhdudlaşdırmaq məqsədilə rəhbərlik gözlənilən pul vəsaitləri hərəkətlərinin hərtərəfli qiymətləndirilməsi üçün mürəkkəb sistem tərtib etmişdir. Likvidliyin idarə edilməsi metodları və hesabatları Bankın Müşahidə Şurası tərəfindən təsdiq edilir, Aktivlərin və öhdəliklərin idarə edilməsi Departamenti tərəfindən hazırlanır və hər ay Aktivlər və Öhdəliklər Komitəsi tərəfindən nəzərdən keçirilir.

Bank pul vəsaitlərinin hərəkəti gözlənilmədən kəsildiyi təqdirdə asanlıqla satıla bilən, bazarda fəal alınıb-satılan və müxtəlif aktivlər portfelinə sahibdir. Bundan əlavə, Bank ARMB-də məcburi ehtiyat saxlayır və bütün filialları, bankomatları və müxbir hesablardakı qalıqları üzrə çox effektiv pul vəsaitlərinin idarə edilməsi sistemini istifadə edir.

Likvidlik vəziyyəti Bank tərəfindən ARMB-nin təyin etdiyi minimum 30% likvidlik əmsalına əsaslanaraq fərdi şəkildə qiymətləndirilir və idarə edilir. 31 dekabr tarixinə bu əmsallar aşağıdakı kimi olmuşdur:

	2019	2018
Ani likvidlik əmsalı	48.25%	45.27%

Maliyyə öhdəliklərinin ödəniş tarixinə qalmış müddətlər üzrə təhlili. Aşağıdakı cədvəldə diskont edilməmiş müqavilə öhdəlikləri əsasında Bankın 31 dekabr tarixinə maliyyə öhdəlikləri ödəniş tarixinə qalmış müddətlər üzrə təqdim edilir. Tələb əsasında ödənilməli öhdəliklər ödəniş tələbinin mümkün olan ən tez tarixdə verilmiş hesab olunur. Bununla bərabər Bank gözləyir ki, müştərilərin çoxu Bank ödənişi aparmalı olduğu ən tez tarixdə ödənişi tələb etməyəcək və cədvəl keçmiş müddətlər üçün əmanətlərin tələb edilməsi haqqında məlumat əsasında Bankın hesabladığı gözlənilən pul vəsaitlərinin hərəkətlərini əks etdirmir.

23 Risklərin idarə olunması (davamı)

31 dekabr 2019	3 aydan az	3-12 ay	1-5 il	5 ildən çox	Cəmi
Maliyyə öhdəlikləri					
Kredit təşkilatlarına ödəniləcək vəsaitlər	1,565	925	4,115	6,332	12,937
Müştərilərə ödəniləcək vəsaitlər	295,234	17,756	9,060	10,948	332,998
Sair maliyyə öhdəlikləri	3,777	1,255	2,934	1,375	9,341
Cəmi diskont edilməmiş maliyyə öhdəlikləri	**300,576**	**19,936**	**16,109**	**18,655**	**355,276**

31 dekabr 2018	3 aydan az	3-12 ay	1-5 il	5 ildən çox	Cəmi
Maliyyə öhdəlikləri					
Kredit təşkilatlarına ödəniləcək vəsaitlər	550	210	3,677	5,441	9,878
Müştərilərə ödəniləcək vəsaitlər	393,308	32,439	10,729	–	436,476
Sair maliyyə öhdəlikləri	3,179	–	–	–	3,179
Cəmi diskont edilməmiş maliyyə öhdəlikləri	**397,037**	**32,649**	**14,406**	**5,441**	**449,533**

Aşağıdakı cədvəldə Bankın maliyyə təəhhüdləri və şərti öhdəlikləri müqavilə müddətləri üzrə göstərilir. Hər bir yerinə yetirilməmiş kredit öhdəliyi müştərinin icra edilməsini tələb edə bildiyi ən erkən tarixin təsadüf etdiyi müddətə daxil edilir. Buraxılmış maliyyə zəmanəti haqqında müqavilələrlə bağlı zəmanətin maksimal məbləği həmin zəmanətin tələb edilə bildiyi ən erkən dövrə aid edilir.

	3 aydan az	3-12 ay	1-5 il	5 ildən çox	Cəmi
2019	11,485	12,633	38,817	35,389	98,324
2018	12,624	16,656	56,221	17,593	103,094

Bank şərti öhdəliklər və ya təəhhüdlərin öhdəliyin müddəti başa çatana qədər yerinə yetirilməsinin tələb olunmayacağını təxmin edir.

Bankın öz öhdəliklərini ödəmək qabiliyyəti eyni müddət ərzində aktivlərin ekvivalent məbləğini reallaşdırmaq qabiliyyətinə əsaslanır.

Bank hər hansı bir təşkilatdan və ya fiziki şəxsdən əhəmiyyətli vəsait almır. Ödəmə müddətlərinin təhlili hər hansı konkret müddətdə əhəmiyyətli mənfi müddətlərin olmasını göstərmir.

Müştərilərə ödəniləcək vəsaitlərə fiziki şəxslərin müddətli depozitləri daxildir. Azərbaycan qanunvericiliyinə uyğun olaraq Bank bu depozitləri əmanətçinin tələbi ilə qaytarmalıdır (Qeyd 17).

Bank likvidliyin idarə edilməsi üçün yuxarıda göstərilən diskontlaşdırılmamış məbləğlər nəzərə almadan öhdəliklərin ödəmə müddətləri üzrə yuxarıda göstərilən təhlilindən istifadə etmir. Bunun əvəzində, Bank aşağıda göstərildiyi kimi gözlənilən ödəmə müddətlərinə və likvidlik kəsirinə nəzarət edir:

23 Risklərin idarə olunması (davamı)

	3 aydan az	3-12 ay	1-5 il	5 ildən çox	Cəmi
31 dekabr 2019-cu il tarixinə					
Maliyyə aktivləri	310,825	69,037	37,084	6,515	423,461
Maliyyə öhdəlikləri	300,578	19,307	13,897	16,219	350,001
Gözlənilən ödəmə müddətlərinə əsasən xalis likvidlik kəsiri	**10,247**	**49,730**	**23,187**	**(9,704)**	**73,460**
31 dekabr 2018-ci il tarixinə					
Maliyyə aktivləri	289,787	78,809	45,382	4,498	418,476
Maliyyə öhdəlikləri	293,881	32,011	11,281	8,326	345,499
Gözlənilən ödəmə müddətlərinə əsasən xalis likvidlik kəsiri	**(4,094)**	**46,798**	**34,101**	**(3,828)**	**72,977**

Bazar riski maliyyə alətlərinin ədalətli dəyərinin və ya onlar üzrə gələcək pul axınlarının faiz dərəcələri və valyuta məzənnələri kimi bazar parametrlərində dəyişikliklər nəticəsində tərəddüd etməsi riskidir. Bank əhəmiyyətli kapital, korporativ sabit gəlir və ya törəmə alətlərə malik deyildir.

Faiz dərəcəsi riski. Faiz dərəcəsi riski maliyyə alətlərinin ədalətli dəyərinin və ya onlar üzrə gələcək pul axınlarının faiz dərəcəsinin artması/azalması nəticəsində ucuzlaşması/bahalaşması riskidir.

31 dekabr 2019 və 2018-ci il tarixinə Bankın dəyişən faiz dərəcələri ilə maliyyə alətləri olmamışdır.

Valyuta riski. Valyuta riski maliyyə alətinin dəyərinin xarici valyuta dərəcələrində dəyişikliklərə görə tərəddüd etməsi riskidir. Bank özünün maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə qüvvədə olan xarici valyuta məzənnələrindəki dəyişikliklərin təsir göstərməsi riskinə məruzdur.

Aşağıdakı cədvəllər 31 dekabr tarixinə Bankın qeyri-ticarət monetar aktivləri və öhdəlikləri və proqnozlaşdırılmış pul vəsaitləri hərəkətləri üzrə əhəmiyyətli riskə məruz qaldığı valyutalar göstərilir. Təhlil, bütün digər göstəricilərin sabit qalması şərti ilə, valyuta dərəcəsinin AZN-ə qarşı məntiqi dərəcədə mümkün olan hərəkətinin mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabata təsirini (valyutaya qarşı həssas olan qeyri-ticarət monetar aktivlərin və öhdəliklərin ədalətli dəyərinə görə) hesablayır. Kapitala təsir mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabata təsirdən fərqlənmir. Cədvəldə mənfi məbləğ mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda və ya kapitalda potensial xalis azalmanı, müsbət məbləğ isə xalis potensial artmanı əks etdirir.

Valyuta	Məzənnədə artım, % 2019	Vergidən əvvəl mənfəətə təsir 2019	Məzənnədə artım, % 2018	Vergidən əvvəl mənfəətə təsir 2018
USD	0.00	-	0.00	-
EUR	0.92	(32)	5.06	40

Valyuta	Məzənnədə azalma, % 2019	Vergidən əvvəl mənfəətə təsir 2019	Məzənnədə azalma, % 2018	Vergidən əvvəl mənfəətə təsir 2018
USD	0.00	-	(0.01)	(1)
EUR	(4.90)	170	(5.86)	(47)

23 Risklərin idarə olunması (davamı)

Əməliyyat riski. Əməliyyat riski sistemlərin nasazlığı, işçilərin səhvi, saxtakarlıq və ya xarici hadisələr nəticəsində yaranan riskdir. Nəzarət sistemi işləməyəndə əməliyyat riskləri nüfuza xələl gətirə, hüquqi nəticələrə və ya maliyyə zərərlərinə gətirib çıxara bilər. Bank bütün əməliyyat risklərinin aradan götürülməsini güman edə bilməz, lakin nəzarət sistemi və potensial risklərin izlənməsi və onlarla bağlı tədbirlərin görülməsi həmin risklərin idarə edilməsi üçün effektiv alət ola bilər. Nəzarət sisteminə vəzifələrin səmərəli bölüşdürülməsi, giriş, təsdiqləmə və tutuşdurma prosedurları, heyətin təlimləndirilməsi və qiymətləndirilməsi prosesləri, eləcə də daxili auditdən istifadə daxildir.

24 Maliyyə alətlərinin ədalətli dəyəri

		Ədalətli dəyərin ölçülməsi üçün istifadə edilən göstəricilər			
	Qiymətləndirmə tarixi	Fəal bazarda müəyyən edilmiş qiymətlər (Səviyyə 1)	Əhəmiyyətli müşahidə edilən giriş məlumatları (Səviyyə 2)	Əhəmiyyətli müşahidə edilməyən giriş məlumatları (Səviyyə 3)	Cəmi
Ədalətli dəyəri açıqlanan aktivlər					
Kredit təşkilatlarından alınacaq vəsaitlər	31 dekabr 2019	–	–	20,986	**20,986**
Müştərilərə verilmiş kreditlər	31 dekabr 2019	–	–	160,678	**160,678**
ARMB-nin notları və digər istiqrazlar	31 dekabr 2019	36,476	–	60	**36,536**
Sair maliyyə aktivləri	31 dekabr 2019	–	–	2,865	**2,865**
Ədalətli dəyəri açıqlanan öhdəliklər					
Kredit təşkilatlarına ödəniləcək vəsaitlər	31 dekabr 2019	–	–	10,051	**10,051**
Müştərilərə ödəniləcək vəsaitlər	31 dekabr 2019	–	–	330,609	**330,609**
Sair maliyyə öhdəlikləri	31 dekabr 2019	–	–	9,341	**9,341**

		Ədalətli dəyərin ölçülməsi üçün istifadə edilən göstəricilər			
	Qiymətləndirmə tarixi	Fəal bazarda müəyyən edilmiş qiymətlər (Səviyyə 1)	Əhəmiyyətli müşahidə edilən giriş məlumatları (Səviyyə 2)	Əhəmiyyətli müşahidə edilməyən giriş məlumatları (Səviyyə 3)	Cəmi
Ədalətli dəyəri açıqlanan aktivlər					
Kredit təşkilatlarından alınacaq vəsaitlər	31 dekabr 2018	–	–	62,030	**62,030**
Müştərilərə verilmiş kreditlər	31 dekabr 2018	–	–	144,831	**144,831**
ARMB-nin notları və digər istiqrazlar	31 dekabr 2018	45,166	–	60	**45,226**
Ədalətli dəyəri açıqlanan öhdəliklər					
Kredit təşkilatlarına ödəniləcək vəsaitlər	31 dekabr 2018	–	–	7,270	**7,270**
Müştərilərə ödəniləcək vəsaitlər	31 dekabr 2018	–	–	335,050	**335,050**

24 Maliyyə alətlərinin ədalətli dəyəri (davamı)

Ədalətli dəyərlə əks etdirilməmiş maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyəri. Aşağıda Bankın maliyyə vəziyyəti haqqında hesabatında ədalətli dəyərlə əks etdirilməmiş maliyyə alətlərinin balans dəyərləri və ədalətli dəyərləri siniflər üzrə müqayisə edilir. Cədvəldə qeyri-maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyərləri təqdim edilmir.

2019	Balans dəyəri	Ədalətli dəyər	Tanınmamış gəlir/(zərər)
Maliyyə aktivləri			
Pul vəsaitləri və onların ekvivalentləri	202,396	202,396	–
Kredit təşkilatlarından alınacaq vəsaitlər	20,986	20,986	–
Müştərilərə verilmiş kreditlər	204,171	204,171	–
Sair maliyyə aktivləri	2,865	2,865	–
Maliyyə öhdəlikləri			
Kredit təşkilatlarına ödəniləcək vəsaitlər	10,051	10,051	–
Müştərilərə ödəniləcək vəsaitlər	330,609	330,609	–
Sair maliyyə öhdəlikləri	9,341	9,341	–

2018	Balans dəyəri	Ədalətli dəyər	Tanınmamış gəlir/(zərər)
Maliyyə aktivləri			
Pul vəsaitləri və onların ekvivalentləri	163,432	163,432	–
Kredit təşkilatlarından alınacaq vəsaitlər	62,030	62,030	–
Müştərilərə verilmiş kreditlər	191,385	191,385	–
Sair maliyyə aktivləri	2,957	2,957	–
Maliyyə öhdəlikləri			
Kredit təşkilatlarına ödəniləcək vəsaitlər	7,270	7,270	–
Müştərilərə ödəniləcək vəsaitlər	335,050	335,050	–
Sair maliyyə öhdəlikləri	3,179	3,179	–

Ədalətli dəyərləri balans dəyərlərinə təxmini bərabər olan aktivlər. Tez satıla bilən və ödəmə müddəti qısa (üç aydan az) olan maliyyə aktivləri və öhdəlikləri ilə bağlı olaraq ehtimal edilir ki, onların balans dəyərləri təxminən ədalətli dəyərlərinə bərabərdir. Bu fərziyyə həmçinin müddətsiz depozitlərə və xüsusi ödəmə müddəti olmayan əmanət hesablarına da tətbiq edilir.

Amortizasiya olunmuş dəyərlə uçota alınan maliyyə aktivləri və maliyyə öhdəlikləri. Kotirovka olunan edilmiş notların ədalətli dəyəri hesabat tarixində kotirovka edilmiş bazar qiymətlərinə əsaslanır. Kotirovka olunmayan alətlər, müştərilərə verilmiş kreditlər, müştəri depozitləri, kredit təşkilatlarından alınacaq vəsaitlər, kredit təşkilatlarına ödəniləcək vəsaitlər, eləcə də sair maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyəri oxşar şərtləri, kredit riski və ödəniş tarixinədək qalmış müddəti olan borc alətlərinin cari dərəcələri əsasında gələcək pul vəsaitlərinin hərəkətini diskont etməklə qiymətləndirilir.

BMS 24 *"Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması"* standartına uyğun olaraq tərəflər o halda əlaqəli hesab edilir ki, bir tərəf digər tərəfə nəzarət etmək və ya maliyyə və ya əməliyyat qərarlarının qəbul edilməsində mühüm təsir göstərmək iqtidarında olsun. Hər bir potensial əlaqəli tərəf münasibətlərini nəzərdən keçirdikdə, diqqət bu münasibətlərin yalnız hüquqi formasına deyil, mahiyyətinə də yönəldilməlidir.

Əlaqəli tərəflər əlaqəli olmayan tərəflərin həyata keçirə bilmədiyi əməliyyatlarda iştirak edə bilər və əlaqəli tərəflər arasında əməliyyatlar əlaqəli olmayan tərəflər arasında əməliyyatlarla eyni şərtlər, müddət və məbləğdə aparılmaya bilər.

YKB və KFS əhəmiyyətli sayda müəssisələrə birbaşa və ya dolayı nəzarət edir və onlara əhəmiyyətli təsir göstərir. Bank bu müəssisələrlə kreditlərin verilməsi, depozitlərin götürülməsi, pul vəsaitləri ilə hesablaşmalar və valyuta əməliyyatları da daxil olmaqla, lakin bunlarla məhdudlaşmayaraq, bank əməliyyatlarını həyata keçirir.

25 Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması

Əlaqəli tərəflərlə əməliyyatlar üzrə cari qalıqlar aşağıda göstərilir:

	2019		2018	
	Baş müəssisə	Ümumi nəzarət altında olan müəssisələr	Baş müəssisə	Ümumi nəzarət altında olan müəssisələr
1 yanvar tarixinə kreditlər üzrə qalıqlar, ümumi	**-**	**1,466**	**-**	**504**
İl ərzində verilmiş kreditlər	–	–	–	1,464
İl ərzində ödənilmiş kreditlər	–	(1,464)	-	(504)
Digər dəyişikliklər	–	(2)	–	2
31 dekabr tarixinə kreditlər üzrə qalıqlar, ümumi	**-**	**-**	**-**	**1,466**
31 dekabr tarixinə dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla	–	-	-	(9)
31 dekabr tarixinə kreditlər üzrə qalıqlar, xalis	**-**	**-**	**-**	**1,457**
1 yanvar tarixinə depozitlər üzrə qalıqlar, ümumi	**1,677**	**5,943**	–	–
İl ərzində yerləşdirilmiş depozitlər	1,620	–	103,627	5,780
İl ərzində ödənilmiş depozitlər	(3,297)	(5,780)	(102,290)	–
Digər dəyişikliklər	1,294	(163)	418	163
Məzənnə fərqindən gəlir/zərər	66	–	(78)	–
31 dekabr tarixinə depozitlər üzrə qalıqlar, ümumi	**1,360**	**-**	**1,677**	**5,943**
31 dekabr tarixinə dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla	(18)	–	(22)	–
31 dekabr tarixinə depozitlər üzrə qalıqlar, xalis	**1,342**	**-**	**1,655**	**5,943**
31 dekabr tarixinə cari hesablar	**1,360**	**186**	**1,681**	**6,229**

31 dekabr 2019-cu il tarixinə baş müəssisənin Bankdakı cari hesablarının qalığı 1,360 AZN (2018: 1,681 AZN) təşkil etmişdir. İl ərzində baş müəssisə tərəfindən 0.37% (2018: 0.32%) faiz dərəcəsi ilə 1,620 AZN (2018: 103,627 AZN) məbləğində depozit yerləşdirilmiş, ümumi nəzarət altında olan müəssisələr tərəfindən isə (2018: 3.25%) depozit yerləşdirilməmişdir (2018: 5,780 AZN).

Əlaqəli tərəflərlə əməliyyatlar üzrə gəlir və xərclər aşağıdakı cədvəldə göstərilir:

	2019		2018	
	Baş müəssisə	Ümumi nəzarətdə olan müəssisələr	Baş müəssisə	Ümumi nəzarətdə olan müəssisələr
Faiz gəlirləri	10	152	423	298
Faiz xərcləri	-	(31)	-	(36)
Haqq və komissiya gəlirləri	-	23	-	34
Haqq və komissiya xərcləri	(109)	(14)	(112)	(13)
Ümumi və inzibati xərclər	(225)	(373)	(78)	(623)

25 Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması (davamı)

5 üzvdən ibarət olan (2018: 6 üzv) əsas idarəedici heyətə ödənişlər aşağıdakılardan ibarətdir:

	2019	2018
Əmək haqqı və qısamüddətli ödənişlər	1,413	1,331
İşçilər üzrə hesablanmış digər xərclər	110	100
Cəmi əsas idarəedici heyətə ödənişlər	**1,523**	**1,431**

26 Kapitalın adekvatlığı

Bank tərəfindən kapitalın idarə edilməsinin məqsədləri (i) tənzimləyici orqanın müəyyən etdiyi kapital tələblərinin yerinə yetirilməsi, (ii) Bankın daim fəaliyyət göstərən müəssisə kimi fəaliyyətinə davam etməsi imkanının təmin edilməsi və (iii) fəaliyyətin həyata keçirilməsi və səhmdar dəyərinin maksimal artırılması məqsədilə yüksək kredit reytinqinin və kapitalın adekvatlığı əmsallarının təmin edilməsidir. Tənzimləyici orqanın müəyyən etdiyi kapitalın adekvatlığı əmsallarına uyğunluq hər ay Bankın İdarə Heyətinin Sədri və Baş Mühasibi tərəfindən nəzərdən keçirilən və imzalanan həmin əmsalların hesablanmasını təsvir edən hesabatlar vasitəsilə nəzarət edilir. Kapitalın idarə edilməsinin digər məqsədləri hər il qiymətləndirilir.

Bank iqtisadi şərait və fəaliyyətinin risk xüsusiyyətləri dəyişdikcə kapital strukturunu idarə edir və müvafiq düzəlişlər aparır. Kapitalın strukturunu saxlamaq və ya bu strukturda düzəlişlər etmək məqsədilə Bank səhmdarlara ödənilən dividend ödənişlərinin məbləğində düzəlişlər edə, kapitalı səhmdarlara qaytara bilər. Keçən illərlə müqayisədə məqsəd, siyasət və proseslərdə ciddi dəyişikliklər baş verməmişdir.

Tənzimləyici orqan hər bankdan və ya bank qrupundan: (a) səhmdar kapitalını minimal 50,000 AZN (2018: 50,000 AZN) səviyyəsində saxlamağı; (b) cəmi nizamnamə kapitalının risk dərəcəsi üzrə ölçülmüş aktivlərə nisbətini ('cəmi kapital əmsalı') müəyyən edilmiş minimal 10% (2018: 10%) səviyyəsində və ya daha yuxarı səviyyədə saxlamağı və (c) 1 dərəcəli kapitalın risk dərəcəsi üzrə ölçülmüş aktivlərə nisbətini ('1 dərəcəli kapital əmsalı') müəyyən edilmiş minimal 5% (2018: 5%) səviyyəsində və ya daha yuxarı səviyyədə saxlamağı tələb edir.

Rəhbərlik hesab edir ki, Bank 2019-cu il ərzində kapitalın adekvatlığı əmsalına riayət etmişdir.

31 dekabr 2019-cu il tarixinə Bankın kapitalın adekvatlığı əmsalı tənzimləyici orqanın tələblərinə əsasən aşağıdakı kimi olmuşdur:

	2019	2018
1-ci dərəcəli kapital	74,992	69,605
2-ci dərəcəli kapital	6,269	9,071
Çıxılsın – kapitaldan tutulmalar	(8,475)	(8,449)
Cəmi məcmu kapital	**72,786**	**70,227**
Risk dərəcəsi üzrə ölçülmüş aktivlər	220,850	294,648
1-ci dərəcəli kapitalın adekvatlığı əmsalı	30.15%	20.73%
Cəmi kapitalın adekvatlığı əmsalı	32.96%	23.79%